*Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.*
*("Maidə" surəsi, 9-cu ayə).*

# İMAN

*"İman" mədəni, maarif müəssisəsinin nəşri*

İyun 2012 (Rəcəb 1433) 04 (72)



***«De: «Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş Peyğəmbəriyəm. (O Allah ki) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir Tanrı yoxdur. O, dirildir və öldürür. Buna görə də, Allaha, Allahın sözlərinə inanın və ümmi Peyğəmbər olan Rəsuluna iman gətirin və Ona tabe olun ki, doğru yolu tapa biləsiniz!» .***
***(Əraf, 7/158)***

***«Ey Məhəmməd! Şübhəsiz, biz səni (təkcə öz qövmünə deyil) bütün insanlara (möminlərə Cənnətlə) müjdə verən, (kafirləri isə Cəhənnəm əzabı ilə) qorxudan bir Peyğəmbər olaraq göndərdik. Ancaq insanların çoxu bunu bilmir!».***
***(Səbə, 34/28)***

***«Ey iman edənlər! Allaha, Peyğəmbərinə endirdiyi kitaba və daha öncə endirdiyi kitaba iman edin. Kim Allahı, mələklərini, kitablarını, Peyğəmbərlərini və axirət gününü inkar edərsə, son dərəcə böyük bir azğınlığa düşmüş olar».***
***(Nisa, 4/136)***

***«Allahı və Peyğəmbərlərini inkar edənlər, Allah və Peyğəmbərlərin arasını açmaq istəyənlər, bir qisminə inanıb, bir sırasını inkar edənlər və (iman ilə küfr) arasında bir yol tutmaq istəyənlər. Kafir olanlar məhz bunlardır. Biz belə kafirlər üçün zəliledici bir əzab hazırladıq».***
***(Nisa, 4/150-151)***

***«Allah və Peyğəmbərinə iman edənlərə, Peyğəmbərlərdən heç biri arasında fərq qoymayanlara isə mükafatları veriləcəkdir. Allah çox bağışlayandır, çox mərhəmətlidir».***
***(Nisa, 4/152)***

***«Ey Peyğəmbər! Biz səni şahid, müjdəçi, uyarıcı, Allahın izni ilə ona dəvətedici və aydınladıcı bir işıq olaraq göndərdik».***
***(Əhzab, 33/45-46)***

***«Bir vaxt Məryəm oğlu İsa belə demişdi: «Ey İsrail oğulları, mən Allahın elçisiyəm. Məndən öncə gələn Tövratı təsdiqedici, məndən sonra gələcək bir Peyğəmbərin də müjdəçisi olaraq gəldim. O Peyğəmbərin adı Əhməddir» Ancaq O, onlara açıq dəlillərlə gələndə, «bu açıq bir sehrdir», dedilər».***
***(Saf, 61/6)***

***«Sözsüz, uca Allah və onun mələkləri Peyğəmbərə səlat edərlər. Ey möminlər! Siz də Ona salavat gətirin, Onun şanına yaraşan şəkildə Ona salam göndərin».***
***(Əhzab, 33/56)***

# MƏBƏS BAYRAMI

## 27 RƏCƏB HƏZRƏT MƏHƏMMƏDƏ (S) PEYĞƏMBƏRLİK VERİLƏN GÜNDÜR



***``(Ya Məhəmməd!) De: Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allah ki,) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir Tanrı yoxdur. O, dirildir və öldürür. Buna görə də, Allaha və Onun sözlərinə (ayələrinə, nazil etdiyi kitablarına) inanın, Peyğəmbərinə iman gətirin və Ona tabe olun ki, doğru yol tapa biləsiniz`` (``Əl-Əraf``, 158).***

Məhəmməd Peyğəmbərin (s) xalq arasında nüfuzu getdikcə artırdı. Çox dərrakəli və gözəl sifətlərə malik Həzrət Məhəmməd Allahın əmriylə sonuncu və şərafətli Peyğəmbər olmalı idi. Məhəmməddə Adəmin dürüst əxlaqı, Asəfin dərin zəkası, İbrahimin tükənməz mərhəməti, İsmayılın bəlağətli nitqi, Yəqubun müəmmaları dərk etmə məharəti, Yusifin misilsiz gözəlliyi, Davudun təmənnasız xeyirxahlığı, Musanın sarsılmaz dəyanəti, İsanın inamı toplanmışdı. Bütün bunlardan xəbərdar olan dünyanın tanınmış şairləri Allah Rəsuluna çoxlu şeirlər, qəsidələr qoşmuşlar.

Miladi təqvimiylə 610-cu il rəcəb ayının 27-də Məhəmməd Peyğəmbərə ilk vəhy gəldi (``Ənkəbut``, 48-49). Bu vəhy onun öz peyğəmbərliyini elan etməsindən ötrü idi.

Həzrət Məhəmmədə (s) peyğəmbərlik verilməsi günündən bəhs edən təfsirçilər göstərirlər ki, bu məşhur gündə Peyğəmbər özünün Həra dağındakı tənha mənzilində idi. Qəflətən Cəbrail mələk nazil olub deyir: ``Allah Təala buyurur ki, Sən öz peyğəmbərliyini elan edəsən və xalqı bütpərəstlikdən uzaqlaşdırıb bir olan Allaha inanmağa çağırasan``.

Bu sözlərdən həyəcana gəlmiş Peyğəmbərimiz bir anlıq cismani sarsıntıdan sonra Allahın qüdrət və əzəmətindən titrədi, sonra isə hərəkətsiz qaldı. Cəbrail ikinci dəfə ona Allahın əmrini təkrar etdi və tək buraxdı. Bu əhvalatdan sonra özünə gələn Peyğəmbər Həra dağından enərək evlərinə gəldi. Həyat yoldaşı Xədicə, Peyğəmbərin üzündə qeyri-adi bir şəfəqin saçdığını gördü və dərhal soruşdu: ``Ey mənim Alicənabım, bu nə nuri-şəfəqdir?``. Peyğəmbər cavab verdi: ``Qalxın və deyin ki, La ilahə iləllah, Məhəmmədən Rəsulullah`` (Allah birdir, Məhəmməd onun elçisidir). Bu sözlərdən sonra o, yatağına uzandı və Xədicədən xahiş etdi ki, onun üstünü örtsün. Xədicə onun üstünü yenicə örtmüşdü ki, qəflətən gözə görünməyən bir kəsin amiranə səsi eşidildi: ``Ey bürünüb yatan, qalx və təkbir - ``Allahu Əkbər``, - de``.

Peyğəmbər tez ayağa qalxıb Kəbəyə getdi və orada ibadət etdi. Kəbəyə birinci gələn Xədicənin əmisi Vərqa oldu. Çox qoca olan Vərqa bir neçə gündən sonra vəfat etdi.

Peyğəmbərə ilk iman gətirən həyat yoldaşı xanım Xədiceyi-Kübra və əmisi oğlu Əli ibn Əbutalib idi.

Yeni əqidə ətraf yerlərə yayılmağa başlayanda müsəlmanların sayı 50-yə çatdı. Lakin müsəlmanlar hələ 3 il də öz etiqadlarını gizli saxlamalı oldular.

Bir gün Peyğəmbər Səfa dağına gedərək bütün nüfuzlu Qüreyşliləri yanına çağırdı. Dəvət olunanların hamısı gəlmişdi. Maraqlısı o idi ki, orada çağırılmayanlar da vardı. Bu zaman Həzrət Məhəmməd üzünü ca-




maata tutub dedi: ``Siz bunu təsdiq edirsinizmi ki, mən həmişə düz danışan və sizə qarşı hər işdə təmənnasız olmuşam``. Camaat Peyğəmbərin fikrini təsdiq etdikdən sonra o, sözünə davam edərək dedi: ``İndi ki, belədir onda gərək siz həmişə mənə inanasınız. Mənim nəsihətlərimi yaxşı dinləyin və onlara əməl edin. Allahın qəzəbindən qorxun. Mən sizi haqq olan bir Allahı tanımağa çağırıram. Öz əllərinizlə düzəldib hazırladığınız bütlərə inanmaqdan, onlara ibadət etməkdən əl çəkin. İbrahimin



və İsmayılın qəbul etdiyi və bizə vəsiyyət etdikləri etiqada qayıdın...``

Səfa dağına toplaşanlar Həzrət Məhəmmədin nitqini diqqətlə dinləyirdilər. Peyğəmbər nitqini təzəcə qurtarmışdı ki, əmisi Əbu Ləhəb irəli sıçrayaraq ``bizim baş bütümüz Sənə qənim olsun!`` deyib Allah Rəsulunu təhqir etdi və yerdən daş götürüb ona tərəf atdı. Bu hadisədən sonra oraya toplaşanlar dağılışdılar.

Peyğəmbər ordan Kəbəyə getdi və vaxtilə İsmayıl peyğəmbərin oturduğu daşın üzərində əyləşdi. Burada da Qüreyşiləri yeni dinə gəlməyə, özünü də bir Peyğəmbər kimi tanımağa çağıran Həzrət Məhəmməd əlavə etdi ki, ``bu dünyada çox ölkələr dini qəbul edəcəklər ki, Axirətdə əzab -əziyyətdən azad olsunlar`` və bütün bütlərə lənət oxumağa başladı. Əhalinin çox hissəsi ona istehza edib dağılışdılar. Çox keçmədən Qüreyş ağsaqqalları toplaşıb məsələ ilə bağlı Əbu Talibə xəbər vermək qərarına gəldilər. Onlar hətta Əbu Talibin qardaşı oğlunu cəzalandırmayacağı təqdirdə, özləri onun barəsində tədbir görəcəklərini söylədilər. Əbu Talib isə onları sakitləşdirməyə çalışdı.

Artıq bu zaman Həzrət Məhəmmədə yeni-yeni vəhylər gəlirdi. Bu vəhylərlə Al-lah-Təala Məhəmmədə İslam dini haqqında qohum və tanışlara məlumat verməyi tapşırırdı. Bildirirdi ki, bu dini qəbul edib itaət edənləri ``müsəlman`` adlan-dırsın.

Həzrət Peyğəmbər qohum tanışlardan 40 nəfəri evinə dəvət etdi. Sonra üzünü onlara tutub qətiyyətlə dedi: ``Mən sizə indiyə qədər heç kəsdə görmədiyiniz bir ecaz gətirmişəm. Əgər desəm ki, üstünüzə düşmən hücum çəkəcək, inanarsız?``. Qohumları onun sözlərini təsdiq etdikdən sonra sözünə belə davam etdi: ``...İnanın ki, Allah məni düz yola çəkmək, müqəddəs iradəsini sizə çatdırmaq, siz bəndələri Onun qəzəbindən qorxutmaq üçün göndərib. Kim qardaşım və davamçım olub mənimlə işləmək istəyir?`` Qohumlardan səs-səmir çıxmadı. Təkcə Məhəmmədin qardaşı oğlu gənc Əli ibn Əbu Talib ayağa qalxıb dedi: ``Ey Peyğəmbər! Mən səninlə olmağa hazıram. Əgər bir kimsə sənə xəta toxundurmaq istəsə, onu öldürərəm``. Həzrət Əli (ə) doğrudan da, hər zaman Məhəmmədə sadiq oldu, ən çətin anlarda belə onu tərk etmədi.

Həzrət Məhəmmədin peyğəmbərliyini təsdiq edən yeni-yeni ayələr nazil olmaqda idi. Bu ayələrdə o, şahid, nur, müjdəçi kimi tanınırdı. Artıq Məhəmməd Peyğəmbərin Ərəbistanın hər tərəfinə yayılmış yeni nəzəriyyəsi ilə maraqlananlar dəstə-dəstə Məkkəyə gəlirdilər. Lakin Qüreyşlilər Həzrət Məhəmmədi təhqiredici ifadələrlə nüfuzdan salmağa çalışırdılar. Bəziləri isə Onu mal-dövlətlə ələ alıb fikrindən döndərmək istəyirdilər. Bütün cəhdlərin əbəsliyini gördükdə isə Məhəmməd Peyğəmbəri və ona iman gətirənləri təqib etməyə başladılar. Onlardan bir çoxuna zireh geyindirib qızmar günəş altında uzadır, döyür, işgəncə verirdilər.

Lakin bütün məhrumiyyətlərə, çətinliklərə baxmayaraq sonunda Allahın dini qalib gəldi və nəinki Ərəbistanda, bütün dünyada yayıldı...

# Əhli-beytlə heç kəs müqayisə oluna bilməz!



### Əhli-beytin (ə) barəsində bir neçə hədis:

Peyğəmbər (s) belə buyurmuşdur:

«Biz Əhli-beytlə heç kəs müqayisə oluna bilməz.»

Göründüyü kimi bu şərəfli hədisdə Peyğəmbər (s) Əhli-beytinin (ə) ülvü məqamını və nəhayətsiz dərəcələrini göstərərək, ümməti onlara tərəf istiqamətləndirir. Həmçinin, ümmətlə onların arasında olan müqayisəolunmaz fərqləri açıqlayaraq, onları insaniyyət, şərafət, ülviyyət və mədəniyyət xəzinələrinə doğru hərəkət etməyə təşviq edir.

Peyğəmbər (s) başqa bir hədisdə Əhli-beytin (ə) barəsində bu şəkildə söhbət açır:

«Biz elə bir ailəyik ki, Allah bizim üçün axirəti dünyadan (dünyada yaşamaqdan) yüksək bilmişdir. Mənim Əhli-beytim (ə) məndən sonra müxtəlif ədalətsizlik və çətinliklərlə rastlaşacaq. Bu vəziyyət bu tərəfdən (şərq tərəfinə işarə edərək) qara bayraqlı insanlar gələnə qədər davam edəcək. Onlar həqiqəttələb olduqları halda, haqqı onlara verməzlər. Onlar həqiqət yolunda müharibə edib zəfər qazanarlar. Sonra onlara istədiklərini verərlər, lakin onlar o (zəfər) bayrağı mənim Əhli-beytimin (ə) bir nümayəndəsinə və yer üzünü bürüyən zülmü ədalətlə əvəz edən şəxsə çatdırmayanadək qəbul etməzlər. Hər kim o zaman həyatda olsa və (ayaq üstə durmağa imkanı olmasa) üzü üstündə yol getməyə məcbur olsa da, çalışsın özünü o insanlara yetirsin.»

Deyləmi Əbu Səiddən belə nəql edir:

Peyğəmbər (s) buyurdu:

«Hər kim mənim Əhli-beytimlə (pis) rəftar etməklə məni narahat etsə, Allahın qəzəbi o adam üçün şiddətli olar.»

Həzrət Əli (ə) Peyğəmbərdən (s) belə rəvayət etmişdir:

«(Ey müsəlmanlar!) üç keyfiyyəti övladlarınıza öyrədib tərbiyələndirin; Peyğəmbərimizi sevmək, Əhli-beytini sevmək və Quran oxumaq. Şübhəsiz, Quran daşıyanlar (onu öyrənib əməl edənlər) qiyamət günündə heç bir kölgə olmayan zaman, Allahın sayəsində kölgələnərlər. (Onlar) Allahın Peyğəmbərləri və digər seçilmiş bəndələri ilə birlikdə məhşur olar.»

Təbərani ibni Abbasdan, o da Peyğəmbərdən (s) belə rəvayət edir:

«(Qiyamət günü) bütün bəndələrə bu dörd sualları verməmiş qoymazlar bir addım irəliləsin; ömrünü hansı şeylərə fənaya verdiyindən, bədənini nələrdə qocaltdığından, mal-dövləti hardan qazanıb, harada məsrəf etdiyindən və biz Əhli-beytin (ə) məhəbbət və dostluğundan.»

Başqa bir hədisdə Peyğəmbər (s) ümmətini Əhli-beytə (ə) tərəf sövq etdirərək, onların elmi və bilik dərəcələrini müsəlmanlara göstərir və yollarını itirdikləri, fitnələrə qapıldıqları zaman onlara müraciət etməyə rəğbətləndirir. Bəli, Quranın kamil alimləri və onun dərin mənalarına mükəmməl bələdçilər onlardır.

Təbərani «Mütəllib ibni Abdullah Həntəbədən» o da babasından belə nəql edir: «Bir gün Peyğəmbər (s) «Cöhfə» məntəqəsində xütbə oxuyaraq buyurdu:

(Ey müsəlmanlar!) Mən sizə özünüzdən yaxın deyiləmmi? (Sizin ixtiyar sahibiniz deyiləm?).»

Dedilər: «Bəli, ey Allahın Peyğəmbəri! Sən bizə özümüzdən yaxınsan.» O həzrət (s) buyurdu:

«Bilməlisiniz ki, (qiyamət günü) mən iki şeyin haqqında sizdən mütləq soruşacağam. O iki şeyin biri Quran, digəri isə Əhli-beytimdir.»



## Xacə Nəsirəddin Tusi:

# İMAM ƏLİ (Ə)

## DİGƏR SƏHABƏLƏRDƏN ÜSTÜNDÜR

(Əmirəlmöminin Əlinin (ə) fəzilətləri barədə risalədən bir parça)

***...Sonda gəlmiş insanlar arasında ən üstünü Muhəmmədin ümməti olmuşdur. Ümmətin arasında ən üstünü səhabələr, səhabə arasında ən üstünü isə Əmirəlmöminin Əli (ə) olmuşdur. Çünki fəzilət və üstünlüyə səbəb olacaq xüsusiyyətlər bütün səhabədə pərakəndə, tək-tək idisə, amma Əmirəlmöminin Əlidə cəm halda idi. Peyğəmbərin (s) onun fəzilətləri haqqında söylədikləri saysız-hesabsız olsa da, biz onlardan bir-neçəsini burada göstərəcəyik:***

**Fəzilətin dərəcələri:**

Birinci dərəcəsi, (Peyğəmbərə (s) hamıdan öncə) ilk iman gətirməsidir.

İkinci dərəcəsi, Peyğəmbərlə (s) qohumluğudur.

Üçüncü dərəcəsi, Allah-Taalanın kitabını (hamıdan daha yaxşı) bilməsidir.

Dördüncü dərəcəsi, halal və haramları (hamıdan daha yaxşı tanıyıb) bilməsidir.

Beşinci dərəcəsi, şəriəti, əhkamı (hamıdan daha yaxşı) bilməsidir.

Altıncı dərəcəsi, (Allah yolunda) vuruşması, göstərdiyi qəhrəmanlıqlarıdır.

Yeddinci dərəcəsi, Allah yolunda sədəqə, ehsan verməsidir.

Səkkizinci dərəcəsi, vərə və təqvasıdır.

Doqquzuncu dərəcəsi, zöhdüdür.

Onuncu dərəcəsi, helmidir.

Amma (təfsilatı ilə demək istəsək) iman baxımından ilk iman gətirən şəxs Əmirəlmöminin Əli olmuşdur. İmanına görə Əmirəlmöminin Əli səhabənin hamısından öndədir. Əmirəlmöminin Əlidən sonra Zeyd ibin Haris, sonra Əmmar, sonra Əbuzər, sonra Abdullah ibn Məsud, sonra Səid ibn Zeyd, sonra Xəbbab ibn Ələrt, sonra Əbu Bəkr, sonra Osman, sonra Təlhə, sonra Zubeyr, sonra Səd, sonra Səid, sonra Əbdürrəhman, sonra Ömər, bunlardan sonra isə Sühəyb, sonra Bilal, sonra Zeyd ibn Sabit. (Öncə iman gətirənlərin üstünlüyünə Qurandan) dəlil olaraq bu ayəyə diqqət yetirin: "Və öndə olanlar. Onlar (dünyada Allah yolunda, imanda, əməldə, xeyirdə öndə olduqları kimi, axirətdə də) öndədirlər! (Nə xoşbəxtdir onlar!)" (əl-Vaqiə-10)

Qohumluğa görə də Peyğəmbərə (s) ən yaxını Əmirəlmöminin Əli olmuşdur. Sonra Cəfər ibn Əbu Talib, sonra Həmzə, sonra Əqil, sonra Həsən, sonra Hüseyn, sonra Abbas, sonra Abdullah ibn Abbas, sonra Ubeydə bin əl- Haris və onun qardaşı Əbu Süfyan. (Peyğəmbərlə yaxın qohumluğun üstünlüyünə Qurandan) dəlil olaraq bu ayəyə diqqət yetirin: "(Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm."(əş-Şura-23), başqa bir ayə: "Allah Öz Peyğəmbərinə (fəth olunmuş) məmləkətlərin əhalisindən (dinc yolla) verdiyi qənimət Allaha, Peyğəmbərə, (Muhəmməd əleyhissəlama yaxın olan) qohum-əqrəbaya, yetimlərə, yoxsullara və (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara) məxsusdur." (əl-Həşr-7)

Allahın kitabını bilməkdə ən üstün dərəcəyə Əmirəlmöminin Əli malik olmuşdur. Sonra Osman, sonra Abdullah ibn Məsud, sonra Zeyd bin Sabit, sonra

Zeyd ibn Abdullah, sonra Əbu Musa Əşəri. Dəlil olaraq bu ayəyə diqqət yetirin: “Əgər (bunu) bilmirsinizsə, zikr (kitab, elm) əhlindən soruşun!”(ən-Nəhl-43), digər bir ayə: “Verdiyimiz kitabı layiqincə (təhrif etmədən) oxuyanlar həmin kitaba iman gətirənlərdir”. (Əl-Bəqərə-121), başqa bir ayə: “Peyğəmbərə və ya özlərindən (möminlərdən) olan ixtiyar (əmr) sahiblərinə demiş olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varan (belə bir xəbərin yayılmasının məqsədəuyğun olub-olmadığını təyin etməyə qadir olan) kimsələr bilərdilər”. (ən-Nisa-83)

Halal və haramı bilməkdə ən üstün dərəcəyə Əmirəlmöminin Əli malik olmuşdur. Sonra Abdullah ibn Məsud, sonra Muaz ibn Cəbəl, sonra Ömər, sonra Salman, sonra Cabir bin Abdullah, sonra Həzifə ibn əl-Yəmani. Dəlil olaraq bu ayəyə diqqət yetirin: “De: “Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!” (əz-Zumər-9), digər bir ayə: “Xeyr, bu (Quran) elm verilmiş kəslərin sinələrində (əzbər) olan açıq-aydın ayələrdir. (Və ya: sənin yazıb oxumaqla məşğul olmadığını kitab əhlindən olan elm sahibləri öz ürəklərində açıq-aşkar bilirlər)”. (Ənkəbut-49), başqa bir ayə: “Onları yalnız (haqqı) bilənlər anlayarlar”. (Ənkəbut-43), başqa bir ayə: “Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar”. (Fatir-28), digər bir ayədə: “...Allah da sizdən iman gətirənlərin və (xüsusilə) elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın”. (Mücadilə-11)

Şəriəti, əhkamı bilməkdə ən üstün dərəcəyə Əmirəlmöminin Əli sahib olmuşdur. Sonra Abdullah ibn Məsud, sonra Əbu Bəkr, sonra Ömər, sonra Muaz ibn Cəbəl, sonra Əbu Musa Əşəri. Dəlil olaraq bu ayəyə diqqət yetirin: “Onun cəzası içərinizdən olan iki ədalətli şəxsin hökmü ilə...” (Maidə-95), digər bir ayə: “Onlar (peyğəmbərlər, din alimləri və fəqihlər) ona (Tövratın ilahi bir kitab olmasını) şahiddirlər”. (Maidə-44), başqa bir ayə: “O halda onların arasında Allahın nazil etdiyi Kitabla hökm et”. (Maidə-49)

Mücahidlərin ən üstün dərəcəsinə Əmirəlmöminin Əli sahib olmuşdur. Sonra Həmzə, sonra Əqil, sonra Cəfər, sonra Ubəydə ibn Haris, sonra Zubeyr, sonra Təlhə, sonra Əbu Dəccanə Ənsari, sonra Muhəmməd ibn Musləmə, sonra Səd ibn Əbi Vəqqas, sonra əl-Bərrai ibn Azib, sonra Səd ibn Muaz. Dəlil olaraq bu ayəyə diqqət yetirin: “Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır”. (ət-Tovbə-111), digər bir ayə: “Allah malları və canları ilə vuruşanları (evlərində) əyləşənlərdən (cihada getməyənlərdən) dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına (hər ikisinə savab) vəd etmişdir. (Lakin) Allah mücahidlərə (evlərində) oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir”. (ən-Nisa-95)

Allah-Taalanın yolunda sədəqə və infaq etməkdə ən üstün dərəcə Əmirəlmöminin Əliyə məxsus olmuşdur. Sonra Əbdürrəhman ibn Ovf, sonra Əbu Bəkr, sonra Osman. Dəlil olaraq bu ayəyə diqqət yetirin: “Birinizin ölümü çatıb: “Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım! – deməmişdən əvvəl sizə verdiyim ruzidən (Allah yolunda) xərcləyin”. (əl-Munafiqun-10), digər bir ayə: “Allah yolunda (könül xoşluğu ilə halal maldan) yaxşı borc verən kimdir ki, (Allah da) onun mükafatını (əvəzini) qat-qat artırsın?!” (əl-Bəqərə-245), digər bir ayə: “Budur, siz (mal-dövlətinizin yalnız qırxda birini) Allah yolunda sərf etməyə çağırılan kimsələrsiniz. Bununla belə içərinizdə xəsislik edən də vardır. Hər kəs xəsislik etsə, ancaq özünə qarşı xəsislik etmiş olar”. (Muhəmməd-38)

Vərə və təqva baxımından ən üstün dərəcə Əmirəlmöminin Əliyə məxsus olmuşdur. Sonra Abdullah ibn Məsud, sonra Əbuzər, sonra Salman, sonra Miqdad, sonra Əmmar, sonra Əbu Bəkr, sonra Abdullah ibn Ömər. Dəlil olaraq bu ayəyə diqqət yetirin: “Həqiqətən, möminlər nicat tapmışlar! – Onlardır (bilin) varis olanlar” (əl-Muminun-1-dən 10 qədərki ayələr), digər bir ayə: “O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz”. (ən-Nur-37)

Zöhdün ən üstün dərəcəsi Əmirəlmöminin Əlidə olmuşdur. Sonra Osman ibn Mətun, sonra Əbuzər, sonra Salman, sonra Miqdad, sonra Əmmar. Dəlil olaraq bu ayəyə diqqət yetirin: “Həqiqətən, (nemətləri, cahcəlalı ilə fəxr etdiyiniz) dünya həyatı göydən endirdiyimiz yağmura bənzər ki, onunla yer üzündə insanların və heyvanların yeyəcəyi bitkilər yetişib (əlvan çiçəklər və müxtəlif meyvələrlə) bir-birinə qatışar”. (Yunus-24), digər bir ayə: “Şübhəsiz ki, dünya həyatı oyun-oyuncaq, əyləncədir. Əgər iman gətirsəniz və (pis əməllərdən, günahlardan) çəkinsəniz, O sizə mükafatlarınızı verəcəkdir”. (Muhəmməd-36), digər bir ayə: “Ehtiyatlı olun ki, dünya həyatı sizi aldatmasın. Şeytan sizi Allaha arxayın edib (Allah Öz bəndələrinə mehribandır, onların hamısını bağışlayacaq, günahlarından keçəcək deyə) tovlamasın!” (Loğman-33)

Hamıda pərakəndə halda olan bu fəzilətlər kimdə cəm halda olsa, həmin kəs möminlərin ən üstünü olar. Möminlərin əfzəli əmirəlmöminin olar. Əmirəlmöminin Əli bütün fəzilətlərdə səhabə ilə şərikdir, səhabə isə hər biri bir və ya iki fəzilətdə Əmirəlmöminin Əli ilə şərikdir. Deməli, Əmirəlmöminin Əli səhabənin ən üstünü olmuşdur.

Zəbane natiq lal əst dər bəyane Əli,
Zolale Xezr rəvan əst dər bəyane Əli
(Əlinin bəyanından danışanın dili quruyar.
Əlinin bəyanından dirilik suyu axar!)

Həmd olsun aləmlərin Rəbbinə, Allahın salamı olsun Muhəmmədə və pak ailəsinə.

Xacə NəsirəddinTusi.

# ORTA ƏSRLƏRDƏ FƏLSƏFƏ



***Fəlsəfə ağılın inkişafı və onu həqiqətləri dərk etmək üçün araşdırma aparmağa sövq edən bir elmdir. Düzdür, bəşərin nə şərqlisi qərblidən, nə də qərblisi şərqlidən heç nə ilə üstün deyil. Amma fəlsəfənin inkişaf tarixinə nəzər saldıqda bunların bir-birinə olan təsirini müşahidə edirik. Burada söhbət fəlsəfənin geniş mənada inkişafından gedir. Lakin fəlsəfə Qərbin özündə belə özünəməxsus bir inkişaf yolu keçmişdir ki, bu məqalədə orta əsrlər dövrünə toxunulur. Unutmamalıyıq ki, fəlsəfə daim dinlə əlaqədə inkişaf etmişdir.***

Fəlsəfə Qərbdə Roma imperatorunun xristianlığı qəbul etməsindən sonra öz tənəzzül dövrünə qədəm qoydu. Üçüncü əsrdən etibarən xristianlığın Avropada yayılması ilə azad əqli düşüncəyə son qoyuldu. Bu qaranlıq əsrlər adlanan dövr min il davam etmişdir. Həmin dövrdə insanın azad əqli düşüncəyə malik olması fikri alt-üst olunmuşdu.

İslam dininin məntiqində isə ağıl azaddır. Nəfsə tabe olan ağıl qəbul olunmur. Əgər məntiqin, təfəkkürün varsa, mübahisə et və həqiqət sənə aydın olsun. Xristianlığın yayılmasında imperatorun öz məqsədi var idi. O, məqsədini gerçəkləşdirmək üçün insanın sərbəst düşünməsinə maneələr axtarırdı. Beləliklə, imperatorun göstərişi ilə insan ağlının məhdud olması barədə şaiyələr yayıldı və insanlar tədricən əqli elmləri kənara qoyub xristianlıq dininə yaxınlaşmağa başladılar. Onların atdığı bu səhv addım həm dinin təhrifinə, həm də fəlsəfə elminin naqisliyinə səbəb oldu. Belə ki, deyirlər bundan sonra Romanın üçallahlığı İsanın (ə) təkallahlığı ilə barışdı. Bu fikrimizi sadə bir misal ilə izah edək: Məsələn, fərz edək iki nəfər şərik ticarətlə məşğuldur. Birinin dinə münasibəti müsbət, digərininki isə mənfidir. Onlar ticarətlərində razılığa gələ bilirlər. Amma fikirləri ziddiyyət təşkil edir. Bunların barışığı bir-birinə zidd olan bir barışıqdır. Romada həmin dövrdə bütlər mövcud idi. Onlardan ata, ana, müqəddəs ruh, yer, göy və onları bir-birinə bağlayan və s.-ni göstərmək olar. Roma imperatorunun xristianlıqla barışığı fikirlərin yox, fikir sahiblərinin barışığı idi ki, bu məsələ öz daxilində böyük ziddiyyətə malik idi. Məlum olduğu kimi, belə hal özünü axırda biruzə verəcəkdi. Beləliklə xristianlıq dini yavaş-yavaş tövhiddən (təkallahlılıqdan) uzaqlaşmağa başladı. Hələ ilk dövrlərdən bu fikirlərdə olan təzadlar özünü bariz şəkildə göstərmişdi. Onlar qəbul etdikləri və bütləri ilə barışığa gətirdikləri dini əsaslandırmağa çalışırdılar. Buna görə də özlərinə fəlsəfi bünövrələr axtarmağa başladılar. Qərbdə "sxolostika" adlanan məktəb dini əsaslandıran bir fəlsəfi cərəyana çevrildi, "Sxolostika" fəlsəfəsinin məqsədi dini etiqadları əqli cəhətdən əsaslandırmaq idi. Lakin bu fəlsəfi məktəb Aristotel fəlsəfəsinə qarşı mənfi münasibət bəsləyirdi. Ona görə ki, Aristotel fəlsəfəsi azad fikrə, düşüncəyə əsaslanırdı. Sxolostika fəlsəfəsi eşq və irfana əsaslanan Platon fəlsəfəsinə daha çox əhəmiyyət verirdi. Buna görə də Aristotelin fikirləri müxalif fikirlər kimi təqdim olunur və onun fəlsəfəsinin tədrisinə icazə verilmirdi.

Məqalənin əvvəlində qeyd etdiyimiz kimi, bir tərəfdə, yəni Qərbdə azad düşüncə həbsə alındıqda, digər tərəfdə, yəni Şərqdə İslamın gəlişi ilə azad təfəkkürə böyük üstünlük verildi. Səlib yürüşlərindən sonra İbn Sinanın, İbn Rüşdün fəlsəfi fikirləri xristian aləminə nəql olundu. Bu dövrdə Şərqdə texnologiya da Qərbdən daha çox inkişaf etmişdi. Hətta Qərbdə bir imperator Şərqin qum saatını görəndə bunun şeytan əməli olduğunu bildirərək öz acizliyini göstərmişdir. Beləliklə, qərblilər Qərbi Şərq vasitəsilə tanıyırlar. Nə üçün? Çünki Qərbin azad təfəkkürü kilsənin zindanlarında həbs olunmuşdu. İbn Sinanın, İbn Rüşdün fəlsəfəsi Aristoteli də onlara tanıtdırdı. Onlar tədricən dinin düzgün dərk olunmasında azad təfəkkürün əsas rolunu anlamağa başladılar. On-

lar etiraf edirlər ki, biz özümüzü İslamla tanıdıq. Səlib yürüşlərindən sonra qərblilər Sxolostika fəlsəfəsinin onların təfəkkürlərini və müstəqil düşüncələrini çərçivəyə saldığını və artıq onun mənfi bir məktəb olduğunu anlamağa başladılar.

Yuxarıda dediklərimizi qısa şəkildə belə yekunlaşdıra bilərik: Xristianlığın Avropada yayılması və kilsənin Roma imperatorluğu ilə birləşməsindən sonra elmi mərkəzlər hakim orqanların nüfuzu altına düşdü. Belə ki, 6-cı əsrdə Afina və İsgəndəriyyə məktəb və universitetləri bağlandı. " Orta əsrlər dövrü" adlanan bu min ilin xüsusiyyəti o idi ki, kilsə sözün əsl mənasında elmi mərkəzlər və universitetlərin proqramına hakim idi.

Bu dövrün fəlsəfi şəxsiyyətlərindən olan Ser Avqusto xristian əqidəsini fəlsəfi əsaslarla, xüsusilə Platon və neoplatonizm fikirləri ilə bəyan etdi. Ondan sonra fəlsəfi bəhslərin bir hissəsi məktəb proqramlarına daxil edildi. Lakin hələ də Aristotelin fikirlərinə qarşı etinasızlıq hökm sürürdü və onun fikirləri dini əqidəyə müxalif kimi təqdim olunurdu. Qeyd etdiyimiz kimi sonralar onun fikirləri Qərbdə islam filosofları vasitəsilə tanıdılmağa başladı.

Getdikcə kilsə bu fəlsəfi cərəyanın müqabilində müqavimət göstərə bilmədi. Nəhayət Ser Tomas Akveni Aristotelin fəlsəfi fikirlərinin çoxunu qəbul etdi və onları araşdırmağa başladı. Bir sözlə, fəlsəfə orta əsrlər dövründə Qərbdə nəinki tərəqqi etmirdi, hətta öz tənəzzül dövrünü keçirirdi. Avropada xristianlığın təhrif olunmuş əqidələrini izah edən, əsaslandıran yeganə fəlsəfə sxolostik fəlsəfə idi. Təbii ki, belə bir fəlsəfənin taleyi ölüm və məhvdən başqa bir şey olmayacaqdı.

İnsan düşüncəsi düzgün şəkildə qurulmalıdır. Düzgün şəkildə qurulduğu təqdirdə davamlı olar. Əks halda onun məhv olma təhlükəsi vardır. Sxolostika fəlsəfəsi nə düzgün din, nə də düzgün fəlsəfə idi. Bu fəlsəfənin nümayəndələri həm din, həm də fəlsəfədən sui-istifadə edirdilər.

Fəlsəfə azad təfəkkür və əqlin inkişafıdır. Din isə ibadət, ilahi vəzifələri yerinə yetirməkdir. Fəlsəfə insanı müstəqil düşünməyə dəvət edir. Dinə məhdud əqlə əsaslanan fəlsəfi don geyindirdikdə, özünün ilahiliyini və müqəddəsliyini itirər. Biz həm dində, həm də fəlsəfədə diqqətli olmalıyıq. Hər kəs fəlsəfəni din, filosofu isə peyğəmbər hesab etsə, hər ikisinə zülm etmiş olur. Fəlsəfə bəşər əqlinin məhsulu, din isə ilahi vəhydir. Əgər kimsə dini, fəlsəfə dərəcəsinə endirsə, fəlsəfədə olan cüzi səhv dinin səhvi kimi dərk olunacaq və bu da dini gerilik kimi təqdim edənlərin əlinə əsas verəcək. Sxolostiklər azad fikri məhdudlaşdırdıqda dini də həbs etdilər.

Ümumiyyətlə, iki istiqamət mövcuddur. Biri yuxarıdan aşağı, digəri isə aşağıdan yuxarıdır. Birincisi vəhy, digəri ağıl və fəlsəfədir. Ağıl kamala çatanda həqiqət aşkar olur. Yarı din, yarı fəlsəfə olması mümkün deyil. Çünki ağıl hələ inkişafdadır və mümkündür ki, bəşərin səhvləri olsun. Digər tərəfdən qeyd etdiyimiz kimi, söhbət sağlam ağıldan gedir. Əgər ağıl qərəzlidirsə, onun təkamülündən danışmaq düzgün deyil. Bu cür bəşəri fikirlər din adı ilə təqdim oluna bilməz. Biz Quranı tənqid edə bilmərik. Çünki Quran ilahi kitabdır, amma Quranı fəlsəfiləşdirdikdə hər ikisinə zülm etmiş oluruq. Naqis ağlın dinlə təzadı çoxdur, kamil ağlın isə heç bir ziddiyyəti yoxdur. Biz heç vaxt Quranın müəllimi ola bilmərik. Bizim müəllimimiz Allah, Onun Rəsulu və Qurandır. Yəni biz Qurandan qabağa gedə bilmərik və həmişə onun qarşısında şagird kimiyik. Quran nə naqis, nə də artıqdır ki, onda islahat aparıb təkmilləşdirək. Amma fəlsəfədə ola bilər ki, bir qədər irəli gedək. Fəlsəfədə islahat məna kəsb edir.

Beləliklə, bir-birinə zidd fikirlərin qarışması Avropada həm dinin həm də fəlsəfənin axırına çıxdı, Avropada renesans dövrü başladı. İnsanların həm dinə, həm də fəlsəfəyə münasibəti dəyişdi.

Əgər bir nəfər Molla Sədra fəlsəfəsini qəbul etməsə, ona kafir demək olmaz. Quranın dediyini, ilahi kəlamı qulaq ardına vurmaq kafirlikdir. Yəni fəlsəfi təfəkkürü qəbul etməklə dini qəbul etmək arasında fərq vardır. Amma ola bilər ki, Molla Sədra fəlsəfəsindəki fikir Quran ayəsilə üst-üstə düşsün. Bunun qəbul olunmaması Qurana görə kafirlik sayıla bilər .

Sxolostika fəlsəfəsinin yaratdığı ziddiyyət renesans dövründə dinin və fəlsəfənin meydandan çıxıb öz yerini təcrübi elmlərə verməsinə səbəb oldu. 16-cı əsrdə Kopernikin, Keplerin və Qalileyin nəzəriyyələri Aristotelin və Platonun fikirlərini alt-üst etdi. Bildiyimiz kimi, Aristotel fizika, məntiq və riyaziyyat elmlərilə yanaşı fəlsəfədə də məşhur alim idi. Bir alimin müəyyən bir sahədə səhvinə görə onun bütün nəzəriyyələrini tamamilə rədd etmək düzgün deyil. Aristotelin fizika sahəsində etdiyi səhvinə əsasən fəlsəfəsinin də səhv olduğu fikri yayılmağa başladı. Renesans dövründə məsələyə səhv yanaşıldı və din ilə fəlsəfə tamamilə kənarlaşdırıldı. Kilsə də onlara qarşı yanlış mövqe tutdu və alimlərin qətlinə fərman verdi. Dediyimiz kimi, din ilə fəlsəfənin qarşılığından doğan bütün səhvlər kilsənin boynuna qoyuldu. Belə bir şəraitdə bunlardan daha təhlükəli bir cərəyan, "huma-nizm" cərəyanı yarandı və Allahın varlığı tamamilə kənara qoyuldu.

Məhəmməd Baqir Saivər



# İNSAN XOŞBƏXTLİYİNİN ƏSASLARI

Qurani-kərim «Əsr» adlanan kiçik bir surədə ("And olsun əsrə ki, insan ziyan içindədir. Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!") təkidlə and içərək buyurur ki, dörd xislətə malik olmayan insan ziyan və bədbəxtlik içindədir. Onlardan birincisi iman, ikincisi yaxşı əməl, üçüncüsü insanların bir-birini haqqa vadar etməsi, dördüncüsü insanların bir-birini səbrə, təmkinliliyə və möhkəmliyə təşviq etməsidir. Bunlar bəşəriyyətin xoşbəxtlik sarayının dörd sütun və əsasıdır. Birinci əsas, yəni iman, insan həyatının ən əsas və mühüm əsasıdır. İnsan insan olaraq imansız xoş və rahat həyata malik ola bilməz. İnsanın hərəkət və fəaliyyətləri yeyib-içmək, yatmaq, qəzəb, şəhvət və müvəqqəti ləzzətlər çərçivəsindən nə qədər çıxırsa, dayaq nöqtəsinə möhtacdır. Həmin dayaq nöqtəsi olmasa, insanın hərəkət və fəaliyyəti nə qaydasına düşər, nə də sevinc və rəğbətlə yoldaş olar. Amma əgər biz hər hansı bir heyvanı, məsələn, atı və ya qoyunu, yaxud maralı nəzərə alsaq, onun «iman» adlandırdığımız şeyə ehtiyacının olmamasını görərik. Çünki həmin heyvanın işləri, hərəkət və fəaliyyəti məhduddur. Onun işi su içmək, otlamaq, atılıb-düşmək və bir də uzaq başı balasını saxlamaqdır. Bu əməllərdə onun bələdçisi, hərəkət amili və dayaq nöqtəsi təbii və ibtidai instinktdir. O, acanda və ya susayanda heç bir şəkk-şübhə və tərəddüdə düşmədən ot və ya su dalınca gedir.

Əgər insanın da iş və hərəkətlərinin çərçivəsi təbii və fitri hərəkətlərdə məhdudlaşsaydı, onun da işlərinin dayaq nöqtəsi yalnız ibtidai və təbii instinkt olardı. Lakin nə etmək olar ki, insanın zəruri iş və hərəkətlərinin əhatə dairəsi bunlardan çox-çox böyükdür. Çünki insanı heyvandan fərqləndirən ilk cəhət onun həyatının ictimai olmasıdır. İctimai həyat insanın başqalarından saysız-hesabsız qədər yararlanmasına səbəb olmuşdur. Buna görə də sayəsində saysız-hesabsız faydalar əldə etdiyi cəmiyyət qarşısında onun öhdəsinə bir sıra vəzifələr və məsuliyyətlər düşür. Boynuna düşən vəzifələrin yerinə yetirilməsi ictimai bir məsələ olduğu üçün daha burada instinkt və təbiət hökm sürmür və burada təbii işlərin yerinə yetirilməsindəki asanlıq və yüngüllük, ləzzət və şövq yoxdur. Burada insan çiyinlərində yalnız vəzifə və məsuliyyətin ağırlığını hiss edir və hətta hiss edir ki, bir çox hallarda həmin vəzifələrin yerinə yetirilməsi onun şəxsi istək, meyil və təbiətinə ziddir. Vəzifə və məsuliyyət ondan düzlük, əmanətdarlıq, fədakarlıq, insaf, ədalət, təqva, iffət, paklıq tələb edir, onun şəxsi təbiəti isə bunların əksinə olaraq, hökm edir ki, ləzzət və şəxsi mənafe üçün yalan danışsın, xəyanət və oğurluq etsin, fədakarlıq, insaf və ədalətdən boyun qaçırsın, kama çatmaq üçün təqva, paklıq və iffət libasını bulaşdırsın. Burada insan özünü öz təbiət və mənafeyinə zidd bir sıra böyük qərarların qarşısında görür. Belə bir şəraitdə insanın ruhunu bu fəzilətlərə razı edən dayaq nöqtəsi olmasa, onun bu vəzifənin öhdəsindən gəlməsi qeyri-mümkündür. Bu dayaq nöqtəsi Qurani-kərimin bəşəriyyətin xoşbəxtliyi üçün qeyd etdiyi dörd sütundan biri – imandır.

İkinci əsas və sütun yaxşı əməldir. Ola bilər ki, bəzilərinin imanı olsun, amma onlar yaxşı əməl sahi-



bi olmasınlar. İlk baxışda bunun, yəni insanın imana malik olub imanın cilvələrindən olan yaxşı əmələ sahib olmamasının təsəvvür edilməsi bir az çətindir. Lakin təəccüb etmək lazım deyil. Çünki bəzən insanların əsas prinsiplərə, Allaha, peyğəmbərlərə, səma kitablarına və din övliyalarına etiqad və imanları olur, amma bəzi sapıntılar və səhvlər ucbatından belə güman edirlər ki, təkcə imana malik olmaq yetərlidir və əməlin elə də əhəmiyyəti yoxdur. Yaxud ola bilər bəzilərinin əməlləri də olsun və həmin əməllər iman və etiqada əsaslansın, amma onlar əməlin müəyyənləşdirilməsində səhv etmiş olsunlar. Yəni onlar iman və əqidələrinin hökmü ilə bir sıra işlər görsünlər, amma həmin əməllərin heç bir təsir və xeyri olmasın. Çoxları ilə rastlaşırıq ki, əqidə və imanları əsasında zəhmət çəkirlər, səy göstərirlər, lakin mənasız və boş yerə; onların həmin əməllərinin zərrəcə müsbət təsiri olmur.

Bəşəriyyətin xoşbəxtliyinin üçüncü sütunu insanların bir-birini imana, həqiqətə və yaxşı işlərə təhrik və təşviq etməsidir. Cəmiyyətdə insanlar özlərinin imanının olmasından və yaxşı işlər görmələrindən əlavə, həm də söz və əməlləri ilə bir-birini iman və yaxşı işlərə təşviq etməlidirlər. Cəmiyyət özünü elə formalaşdırmalıdır ki, insanlar Allah eləməmiş yaxşı və xeyir işlərin təlqininin deyil, pis və pozğun təlqinlərin təsiri altında olsunlar.

Dördüncü əsas, insanların bir-birini səbrə, təmkinli və möhkəm olmağa təşviq etməsi, həvəsləndirməsidir. Dövran həmişə insanların istəyinə uyğun olmur, hadisələr küləyi həmişə gəminin hərəkət istiqamətində əsmir. Buna görə də xoşagəlməz hadisələr qarşısında möhkəm dayanmaq, müqavimət göstərmək lazımdır. İnsanlar, gərək, daim bir-birinə səbirli və möhkəm olmağı tövsiyə etsinlər. Qurani-kərim buyurur: "Şübhəsiz, əgər (insanlar haqq) yolda sabitqədəm olsalar, mütləq onları (Öz rəhmət dəryamızdan) bol su (maddi və mənəvi bərəkətlər) ilə sirab edərik". (Cin, 16)

Mürtəza Mütəhhəri

***www.parlayangunesh.az***




## ALLAH!

Bu dünyanın işləri
Sənə əyandır, Allah!
Bəndəni doğru yolda
Saxla, dayandır, Allah!

Son dünya peyğəmbəri
Rəsulullahdan bəri
Dilimizin əzbəri
Gözəl Qurandır, Allah!

Əyrini, yalanları,
Çapıb, talayanları,
Elə xor baxanları
Oda tut, yandır, Allah!

Mərhəmət eylə bizə,
Gəlməyək yaman gözə.
Səbr ver səbrmizə,
Qanmazı qandır, Allah!

Sil qəlblərdən qubarı,
Xoşbəxt et yaxşıları.
Aç bağlı qapıları,
Bizi şadlandır, Allah!

Bəhram İslamoğlu

*Qardabani r-nu Birlik kəndi*

# Qəlb necə daşa dönür?!

**Qəlbin daşlığında və qaralığında uzun-uzadı arzuların rolu**

**Bütün peyğəmbərlər Allahın xüsusi diqqətindən bəhrələnmiş, ən ali ilahi kamilliyə çatdıqlarından Allah bəndələrinin üstünü sayılmışlar. Amma hər bir peyğəmbərin o biriləri ilə müqayisədə müəyyən imtiyazları var. Onlar bu imtiyazları ilə tanınırlar. Məsələn, həzrət Musa "Kəlimullah" məqamına çatmışdır. O Tur dağında Allahın danışığını eşidirdi. Bu səbəbdən də onu "Kəlimullah", yəni Allahın həmsöhbəti adlandırmışlar. Quranda oxuyuruq: "Allah Musa ilə aşkara danışdı."**

**Bu uca mərtəbəli peyğəmbər elə bir məqama yüksəlmişdi ki, Tur dağında öz məbudu ilə xəlvət söhbətləşirdi. Xüsusi və ilahi söhbətlərdən birində Allah Musadan uzun-uzadı arzulara yer verməməsini istəyir. Musanın nəzərinə çatdırılır ki, uzun-uzadı arzular qəlbi daşlaşdırır, nəticədə insan ilahi mərhəmətdən məhrum olur.**

**Bu qəbil rəvayətlərin aydınlaşması üçün "qəlb və qəlbin daşlaşması nədir" sualına cavab verməliyik. Bu təbirlər anlaşıldıqdan sonra uzun-uzadı arzuların qəlbə təsirindən danışmaq olar.**

**1.Qəlb və dini təlimlərdə onun rolu**

«Qəlb» sözü ayə və rəvayətlərdə tez-tez işlədilən sözlərdəndir. Bu söz gündəlik dilə də həmin mənbələrdən keçmişdir. Əlbəttə ki, hazırkı rəvayətlərdə "qəlb" dedikdə insanın köksündəki sənubər şəkilli maddi üz nəzərdə tutulmur. Dini təlimlərdə düşüncə və hisslərin mərkəzi kimi fəaliyyət göstərən həqiqət qəlb adlanır. Quran qəlbin iki xüsusiyyətini qeyd edir. Birinci xüsusiyyət onun qazanılma və verilmə (hüsuli və hüzuri) elmlərdən xəbərdarlığıdır. İkinci xüsusiyyət meyllər və hisslərdir. Quran birinci xüsusiyyətlə bağlı buyurur:



"Yer üzündə gəzmədilərmi ki, həqiqəti dərk edəcək qəlbləri olsun?!" İkinci xüsusiyyətlə bağlı buyurulur: "Möminlər Allah yada salındıqda qəlbləri qorxan kəslərdir."

Quranda rastlaşdığımız "fuad" sözü də qəlb mənasında işlədilir. Buna görə də qazanılma və verilmə elmlər, meyllər və hisslər ona aid edilir. Allah-taala qəlbin müxtəlif biliklər üçün mənşə olduğunu qeyd edir: "Qəlb gördüyünü inkar etmədi."

Şübhəsiz, ayədə hisslərlə görmək mənası nəzərdə tutulur. Qəlb mənəvi bir məfhum olduğundan onun görməsi də mənəvidir.

**2.Quranda qəlbin çaşqınlığı və daşlaşması mövzuları**

Quran baxımından qəlb insan ruhundan ibarətdir. O da ruh kimi qavrayışlara, hisslərə, meyllərə malikdir. O fitrətlə eyni yol tutduqda Allaha iman mərkəzi olur, həqiqətə yönəlir, qaranlıq və pasdan təmizlənir. Quranda buyurulur: "Kim Allaha iman gətirsə, Allah onun qəlbini hidayət edər." Amma Allaha imandan xali qəlb istər qavrayış, istər meyl baxımından bəlaya düçar olur. Quran bir çox ayələrdə yuxarıda qeyd olunan istiqamətlərdə qəlbin çaşqınlığını yada salır. Qavrayışlarla bağlı qəlbin azğınlığı haqqında buyurulur: "Öz nəfs istəyini məbud seçən, Allahın elmi üstündən azdırdığı, qulağına və qəlbinə möhür vurduğu, gözünə pərdə çəkdiyi şəxsi gördünmü? Kimdir Allahdan sonra yol göstərən? Öyüd götürmürsünüz?"

Başqa bir ayədə oxuyuruq: "Allah onların qəlblərinə və qulaqlarına möhür vurub, gözlərinə pərdə çəkib. Onlar üçün böyük əzab var."

Ayələrdən birində inadkarlıq və itaətsizlik nəticəsində hidayətdən məhrum olmuş xəstə qəlb həqiqət qapıları üzünə bağlanmış, bəsirətdən məhrum,

cəhalətə üz tutmuş kora bənzədilir: “Onların gözü yox, sinələrindəki qəlbləri kordur.” Başqa bir ayədə oxuyuruq: “Elə ki, əyri yola düşdülər, Allah da onların qəlblərini döndərdi.”

Ayələrdə müxtəlif meyllərlə bağlı qəlbin azğınlıqları haqqında deyilir: “Allah birliyi ilə yada salındıqda axirətə inanmayanların qəlbləri pərişan olur, Allahdan qeyrisi yada salındıqda dərhal sevinirlər.” Bəni-İsrail məzəmmət olunarkən deyilir: “Bundan sonra qəlbləriniz daş kimi, ya daha bərk daşlaşdı. Həqiqətən, bəzi daşlardan çeşmə çıxar, onlardan bəziləri parçalanar və su axar, bəziləri isə Allah qorxusundan yuvarlanar.”

Bu ayədə qəlbin bərkliyi onun azğınlıq nəticəsi kimi zikr olunur. “Qəsavət” sözü bərklik, nüfuzedilməzlik mənasını bildirir. Bəzən deyirlər ki, qəlb mərhəmətli, yumşaq və kövrəkdir. “Qəsavət” sözü isə sadalanan mənalara zidd məna bildirir. Mərhəmətdən, Allah qorxusundan xali qəlb qəsavətli sayılır. Belə bir qəlb daş kimi nüfuzedilməzdir. Qəsavət qəlbi daşdan da bərk edir. Qəlbi qəsavətli insanı başqalarının dərdi narahat etmir, belə biri kimsənin halına yanmır. Qəsavət səbəbindən moizə-nəsihət qəlbə təsir göstərə bilmir, insanın gözünün yaşı quruyur.

### 3.Moizə-nəsihətin həzrət Yəhyaya güclü təsiri

İnsan təcrübədə müxtəlif hallar yaşadığına şahid olur. Bəzən moizənin təsiri altına düşür, bəzən haqqında eşitdiyi faciə onu həyəcanlandırır və gözündən yaş gəlir. Bəzən isə ən təsirli moizə, ən dəhşətli müsibət onun halını dəyişmir.

Pak və nurani qəlbli insanlar moizələrə xeyli tez reaksiya göstərir. Pərişanlıq yumşaq qəlbin səciyyələrindəndir. Ən üstün ruhani hal isə peyğəmbərlər və övliyalarda müşahidə olunur.

Həzrət Yəhyaya moizə çox tez təsir göstərər, onun qəlbində təlatüm yaradardı. Həzrət Zəkəriyya Bəni-İsrailə nəsihət vermək istədiyi vaxt sağına-soluna baxardı ki, Yəhya oradadır, yoxsa yox. Yəhyanın hüzurunda behişt və cəhənnəmin adını çəkməzdi. Bir dəfə Yəhya məclisdə olmayan vaxt Zəkəriyya moizə-nəsihətə başladı. Əbasını başına çəkmiş Yəhya məclisə daxil oldu və bir kənarda əyləşdi. Onu görməyən Zəkəriyya söhbətə başladı: “Həbibim Cəbrail mənə xəbər verdi ki, Allah-taala buyurmuşdur: “Cəhənnəmdə Səkəran adlı bir dağ var. Dağın ətəyindəki vadiyə Ğəzəban deyirlər. Çünki həmin yer Allahın qəzəbindən dağılmışdır. Həmin vadidə bir quyu var. Onun dərinliyi yüz illik yoldur. Bu quyuda oddan tabutlar mövcuddur. Tabutlarda oddan libaslar, zəncirlər və buxovlar var.”

Zəkəriyyanın söhbətini dinləyən Yəhya fəryad qoparıb dedi: “Səkərandan necə də xəbərsizik!” Məclisdən qalxıb biyabana üz tutdu. Zəkəriyya məclisdən çıxıb Yəhyanın anasının yanına getdi və buyurdu: “Yəhyanı tap, qorxuram onu sağ görməyəsən.” Yəhyanın anası onun ardınca getdi. Bəni-İsraildən bir qrupla rastlaşdı. Yəhyanın anasından haraya getdiyini soruşdular. Dedi: “Oğlum Yəhyanın ardınca gedirəm. Cəhənnəm odu haqqında eşidib səhraya üz tutub.” Yəhyanın anası oğlunu soraqlaşarkən bir çobanla rastlaşdı. Ondan Yəhyanı görüb-görmədiyini soruşdu. Çoban dedi: “Bəli, Yəhyadan bir az əvvəl ayrılmışam. Göz yaşları ayaqlarını islatmışdı. Üzünü göyə tutub deyirdi: “Səni izzət və cəlalına and verirəm, ey mənim mövlam! Öz axirət mənzilimi görməyincə dilimə su vurmayacağam.” Anası Yəhyanı tapıb onu ağuşuna aldı və Allaha and verdi ki, evə qayıtsın. Yəhya anası ilə evə qayıtdı.

### 4.Qəlbi qəsavətdən xilas etməyin zərurəti

Bəzi psixoloqlar qəsavəti, qəlbidaşlığı müsbət səciyyə sayırlar. Onların nəzərincə, qəlbiyumşaqlıq, tez təsirlənmə qadınlara və uşaqlara xas olan mənfi xüsusiyyətdir. Bu səbəbdən də onlar insanların hadisələr müqabilində tez həyəcanlanıb göz yaşı axıtmasını bəyənmirlər. Amma Qurani-kərim ayələrinə əsasən qəlbidaşlıq mənfi əxlaqi səciyyədir və məzəmmət olunur. Bizlər Quran göstərişlərini yerinə yetirmək əzmində olduğumuzdan ilk növbədə qəsavət kimi əxlaqi xəstəlikdən qurtulmalıyıq. Hər yolla çalışmalıyıq ki, bu xəstəlik qəlbimizə yol tapmasın. Amma bu xəstəliyə düçar olduqdan sonra onu mənfi dəyərləndirərək aradan qaldırmağa çalışmağımız zəruridir.

Heç şübhəsiz, xaşe, yəni yumşaq qəlb moizə-nəsihətləri daha tez qəbul edir. Qəsavət xəstəliyinə düçar olmuş qəlb isə heç bir moizədən təsirlənmir. Deməli, moizənin təsir göstərməsi üçün qəlb qəsavətdən xilas olunmalıdır. Qəsavət xəstəliyinə tutulmuş qəlb ilahi ayələrdən təsirlənmir, heç bir reaksiya göstərmir. “Onu tutun və buxovlayın, oda atın” kimi əzab ayələri möminin qəlbini yerindən oynadır, onun varlığını titrədir. Qəsavətli qəlb isə bu qəbil bəyanatlardan təsirlənmir. Allah-taala Musa ilə söhbətində qəlbi bərkidən uzun-uzadı arzulardan çəkinməyə çağırır. Həzrət Musadan və bütün başqa bəndələrdən istənilir ki, uzun-uzadı arzulardan qorunsunlar. Çünki uzun-uzadı arzular qəlbi bərkidir və nəticədə moizə-nəsihət insana təsir göstərmir.



5.Faydalı arzuların faydasız arzulardan seçilməsi

Diqqət yetirmək lazımdır ki, arzu öz-özlüyündə məzəmmət olunmur. Bir çox arzular faydalı, dəyərlidir. Böyük elmi dərəcəyə çatmaq, ilahi övliyalar cərgəsinə qatılmaq, hətta Allah bəndələrinə xidmət üçün dünyəvi məqam istəmək dəyərli arzulardandır. Uzun-uzadı arzular dedikdə bütün ömrü puça çıxaran və nəticədə axirət üçün faydası olmayan arzular nəzərdə tutulur. Ömrü dünya istəklərinin gerçəkləşməsinə sərf etmək istəyi bu qəbil arzulardandır. Belə arzular insanın dünya məhəbbətini gücləndirir, hətta bəyənilməyən yollara aparır.

Başlanğıc həyat mərhələsində əliboş bir insan bərbəzəkli saray tamahına düşüb bu arzusuna çatmaq üçün çalışırsa, bütün ömrünü bu işə sərf etməli olur. Əlbəttə ki, belə bir arzunu gerçəkləşdirmək üçün Allahdan uzaqlıq və başqalarının haqqını tapdalamaq bahasına başa gələn sərmayəyə ehtiyac var. İnsan bu sərmayəni ələ keçirmək üçün halal-harama baxmadan səy göstərir.

Amma bir şəxs daha yaxşı ibadət etmək və Allaha yaxınlaşmaq üçün ondan nemət istəyirsə, bu ilahi istəkdir. Xalqa xidmət üçün imkan arzulayanlar əslində axirət arzusundadır. Bu zümrədən olanlar uyğun istəklərlə yanaşı bu istəklərin səmimiliyini göstərən səciyyələrlə tanınırlar. Məlum olur ki, onlar ətrafdakıları aldatmaq fikrində deyillər və bəyan etdikləri arzuları sadəcə bir pərdə deyil. Şübhəsiz, belələri axirət və Allahın razılığı sorağındadırlar. Dünyapərəstlik və Allahdan xəbərsizlikdən qaynaqlanan uzun-uzadı arzular insanın bütün ömrünü puça çıxaran arzulardandır. Bu arzular insanın düşüncəsini bütünlüklə özünə məşğul edir və onun diqqətini yalnız dünyaya yönəldir. Bəzi mənəvi yönümlü arzular da uzun-uzadı arzular qismindən ola bilər. İnsan var-dövlət eşqi ilə bütün ömrünü bada verdiyi kimi, dini mərcəiyyət (alimlik) dərəcəsi almaq üçün də hər şeyi yaddan çıxara bilər. Nə pul, nə məqam, nə dini ad insan üçün son məqsəd olmamalıdır. Belə bir münasibət məzəmmət olunmuşdur və insanı doğru yoldan uzaqlaşdırır. Nəql edirlər ki, Əmirəlmöminin (ə) bir şəxsin adını çəkib buyurdu: "O rəyasət və məqam istəyindədir." Sonra həzrət əlavə etdi: "Çobansız sürüyə hücum çəkən iki canavarın zərəri rəyasətpərəst insanın müsəlmanların dininə zərərindən daha azdır."

Allah-taala öz dostlarının vəsfində buyurur: "Möminlər o kəslərdir ki, Allah yada salındıqda qəlblərinə qorxu düşər, onlara ayələr oxunduqda imanları artar və öz Rəbblərinə təvəkkül edərlər." Digər bir ayədə Allah zikri müqabilində mömin qəlbin uçulmasının zəruriliyi bildirilir: "İman gətirənlər üçün bir vaxt çatmadımı ki, qəlbləri Allah zikri və nazil olmuş haqla yumşalsın?!"

Təbii ki, dünya məhəbbətinə qərq olmuş və gələcək üçün planlar cızan qəlb uzun-uzadı arzulara məşğul olduğundan onda Allah zikrinə yer tapılmayacaq. Allah məhəbbətindən xali qəlbin zikr zamanı qorxu və uçulmasından danışmağa dəyməz. Çünki bir qəlbdə iki eşq yaşatmaq olmaz. Dünya bər-bəzəyinə məftun insan qəlbində ilahi eşq bəsləyə bilməz. Allah-taala buyurur: "Allah heç kimin dərinliyində iki qəlb qərar verməyib."

Bu qəbil hədislərdən başqa bir nöqtə də aydınlaşır: mömünin ən böyük amalı və arzusu Allaha yaxın məqama çatmaqdır. Əksinə, ən böyük zərər isə Allaha yaxınlıqdan məhrum olmaq sayılır. Allah qüdsi hədisdə buyurur: "Qəlbi bərkimiş insan məndən uzaqdır."

# 47 -Cİ SURƏ

# MƏHƏMMƏD SURƏSİ



***(«MƏHƏMMƏD» HƏZRƏT PEYĞƏMBƏRİN MÜBARƏK ADIDIR; MƏDİNƏDƏ NAZİL OLMUŞDUR).***

***SUALLAR:** Nə üçün surə Həzrət Peyğəmbərin (s) adı ilə adlandırılmışdır?*

*Surənin ilk ayəsində kafirlərlə mö'minlər necə müqayisə olunur?*

*Bu iki qrupun vəziyyətindəki fərqin əsas səbəbi nədir?*

*Surədə kafirlərlə cihad haqqında nə deyilir və möminlərə hansı müjdə verilir?*

***Surənin mətni haqqında:*** Surənin 2-ci ayəsində həzrət Peyğəmbərin mübarək adı çəkildiyindən surə «Muhəmməd» adlandırılmışdır. 1-3-cü ayələrdə kafirlər və möminlər belə müqayisə olunur: «Kafir olanların və insanları Allahın yolundan döndərənlərin əməllərini Allah puça çaxaracaqdır; iman gətirib saleh işlər görənlərin, Rəbbindən Məhəmmədə haqq olaraq nazil edilənə inananların isə günahlarının üstünü örtəcək və onların əhvalını yaxşılaşdıracaq; bu, ona görədir ki, kafirlər batilə uymuş, iman gətirənlər isə öz Rəbbindən gələn haqqa tabe olmuşlar. Allah insanlara özlərinə dair belə məsəllər çəkir.» Kafirlərin bütün təlaşları insanları imandan uzaqlaşdırmaq məqsədi güdür. Onlar mənfi təbliğatlar, siyasi-ictimai, iqtisadi problemlər yaratmaqla, müsəlmanlarla müharibələr və müxtəlif fitnələr vasitəsi ilə İslamın yayılmasına mane olurlar. Amma onların bütün planları təsirsizdir. Onlar bu təlaşları ilə təkcə özlərinə əziyyət verirlər. İlkin İslam dövründən başlamış bu günədək, tarix boyu İslam düşmənlərinin bu sahədəki fəaliyyətləri səmərəsiz olmuşdur.

Allah-təala iman gətirib saleh iş görənlərin keçmişini bağışlayır, onlara yaxşı gün-güzəran verir. Öz insani xarakteri ilə Allaha doğru addım atan, ilahi ayinlər əsasında yaşayan insanlar get-gedə islah olur, dünya və axirətdə səadətə çatırlar.

Kafirlərlə möminlərin vəziyyəti arasındakı fərqin səbəbini bilirsinizmi? Səbəb budur ki, kafirlər batili, iman əhli isə haqqı seçmişdir. Batilin məhv olması isə ilahi bir qaydadır. Batil puç olub aradan gedəsi, yalnız və yalnız haqq qalasıdır. Bəli, kafirlər öz yanlış, möminlər isə öz düz seçimlərinin nəticəsindən bəhrələnirlər.

4-7-ci ayələrdə cihadın bəzi hökmləri bəyan olunur: «Kafirlərlə qarşılaşdığınız zaman onların boyunlarını vurun. Nəhayət, onları məğlub etdikdə kəndirlə möhkəm bağlayın. Müharibə bitdikdə onlara ya minnət qoyun (azad edin), ya da fidyə müqabilində buraxın. Əmr belədir. Əgər Allah istəsəydi, onlardan intiqam da ala bilərdi. Lakin o sizi bir-birinizlə imtahana çəkmək üçün (vuruş əmr etmişdir). Allah öz yolunda öldürülənlərin əməllərini əsla puç etməz; Allah onları doğru yola müvəffəq edəcək, onların əhvalını yaxşılaşdıracaq; və onları özlərinə tanıtmış olduğu cənnətə daxil edəcəkdir; ey iman gətirənlər, əgər siz Allaha yardım göstərsəniz, o da sizə yardım göstərər və sizi sabit qədəm edər.

Allah-təala bu müjdələrlə möminləri təlaş və cihada çağırır. Bəli, mömin insanlar təkcə öz qüvvələrini yox, Allahın yardımını da nəzərdə saxlamalıdırlar. Allah iman gətirənlərə onların müqəddəs təlaşlarında yardımçı olur, onların addımlarını möhkəmləndirir.

*İmam Sadiq (ə) buyurdu: Hər kəs "əlləzinə kəfəfu" (Muhəmməd) surəsini oxusa, heç vaxt şəkk etməz. Onun qəlbində heç vaxt dininə aid bir şəkk-şübhə yol tapmaz. Allah heç vaxt onu yoxsulluqa və zalım padşahdan hədələməsinə girift-ar etməz. O, həmişə şəkdən və küfrdən amandadır. Necə ki, o vəfat etdi, Allah min mələyi onun qəbrində namaz qılmağa hazır edər və savabını onun üçün hədiyyə edərlər. Qəbirdən qaldırılanda onu Allah əzzə və cəllənin hüzuruna qədər müşayiət edərlər. İmam dayanacağında onu saxla-yarlar. O Allahın və Rəsulu Məhəmmədin (s) amanında (lütfü nəzərində) olacaqdır.*

*Allahın Rəsulu (s) buyurdu: Hər kəs Muhəmməd (s) surəsini oxusa, ona Behişt arxlarından içirtmək Allah üçün vacib-dir. Əbu Bəsir imam Sadiqdən (ə) nəql edib ki, o Həzrət belə buyurdu: Hər kəs Muhəmməd (s) surəsini oxusa, heç vaxt dinində şəkki olmaz, O, həmişə şirkdən və küfrdən qorunacaq, və o halda dünya-da köçəcək. Vəfatından sonra Allah min mələyi məmur edəcək ki, qəbrində namaz qılıb, savabını ona bağışlasınlar. Allahın dərgahına əmin yerə aparılana qədər onun-la birlikdədirlər. O Allahın və Peyğəmbəri Məhəmmədin (s) amanında olacaq. Yenə də imam Sadiq (ə) buyurdu: Hər kəs bizim və düşmənlərimizin halından xəbərdar ol-maq istəyirsə, Muhəmməd (s.ə.v.v) surəsini oxuması gərəkdir. Çünki bu surəni bir ayəsinin bizim və bir ayə düşmənlərimizin haqqında olduğunu gö-rəcəkdir. Düşmənə zəfər (qələbə) çalmaq niyyəti ilə və həmçinin qorunmaq üçün bu surəni oxusun.*



# Bağdadda Qızıl məscid




***637-ci il 1 İyun tarixində müasir İraqın cənubunda, Əl-Hira yaxınlığındakı düzənlikdə Sasani imperiyasının ordusu, 6 minlik müsəlman-ərəb qoşunu arasında tarixi döyüş baş verdi. Sasani ordusunun başçısı Rüstəm öldürüldü, onun ordusu isə döyüş meydanından qaçdı. Sasanilər məğlub olduqdan sonra Dəclə və Fərat sahillərində yerləşən nəhəng İraq ölkəsi bir anda Ərəb xilafətinin tərkibinə qatıldı.***

750-ci ilə qədər xilafətin paytaxtı Dəməşq idi. İraqın ərəb əyanları isə öz iqamətgahlarını Bəsrə, Kufə, yaxud Vasiddə qururdular. Abbasi dövlətinin banisi, xəlifə Əbu Cəfər Əl-Mənsur isə dövlətin paytaxtı olaraq Bağdadı seçdi. O zamanlar Bağdad at alqı-satqısı keçirilməsi üçün məşhur olan kiçik bir kənd idi. Bu balaca kənd ərəb dövlətinin gələcək mərkəzinə, əfsanə və rəvayətlərdə, «1001 gecə» nağıllarında adı çəkilən Şərqin simvoluna çevriləcəkdi.

Deyilənə görə xəlifə Əl-Mənsur şəhərin planını əvvəlcə torpağın üzərində, neftə hopdurulmuş pambıq toxumlarından ibarət xətlərlə işarələməyi və sonra da yandırmağı əmr etmişdi. Nəticədə kül izindən dəqiq sxeması əmələ gəldi. Xəlifə gələcək paytaxtın divarlarını, darvazalarını və küçələrini dolandıqdan və layihəni onun arzularına uyğun gəldiyinə tam əmin olduqdan sonra tikinti başlamışdı. Paytaxtın tikilişi 4 il sürdü, 9 milyon qızıl dinar (1 dinar 4, 265 qram qızıla bərabər idi) xərc çəkildi. Əl-Mənsur öz şəhərini «Mədinət əs-Saləm» adlandırdı. Lakin bu təntənəli ad saxlanmadı. Xalq arasında şəhər Dəclə sahilində kiçik bir kəndin adı ilə, Bağdad deyə çağırıldı.

Xilafətin paytaxtı sürətlə genişləndi, mühim, beynəlxalq, siyasi, ticarət və mədəniyyət mərkəzinə çevrildi. Öz möhtəşəmliyinə görə o dövrdə mövcud şəhərlər içində ancaq Kostantinopol Bağdadla müqayisə oluna bilərdi. Növbəti iki yüz il ərzində bu şəhər dünyanı heyrətləndirən tikililərlə bəzənirdi.

Baş verən müharibələr və qarşıdurmalar ərəb dövlətinin paytaxtında baş verən yüksəlişə heç cür mane ola bilmirdi. Bağdadın ən məşhur memarlıq tikililərindən biri Əl-Kazimeyn qızıl məscididir. Məscidin daxilində vaxtı ilə İmam Kazim (ə) və İmam Cavadın (ə) məzarları üzərində ucaldılmış sərdabə yerləşirdi. Bu türbə 1258-ci ildə Çingizxanın nəvəsi Hulakunun rəhbərliyi ilə monqolların Bağdadı işğal etdikləri zaman dağıdılmışdı. 1367-ci ildə Sultan Uveysin hakimiyyəti dövründə türbə bərpa olundu, İmamların (ə) məzarı üzərinə mərmər lövhələr döşəndi, divarı Quran



ayələri yazılmış kaşı lövhələr bəzədi, türbənin üzərində iki gümbəz quruldu və minarələr ucaldıldı.

Yüz il sonra Bağdadı tutmuş Səfəvi hökmdarı Şah İsmayıl Xətai köhnə türbəni sökərək yenisi ilə əvəzlənməsini əmr etdi. Bərpa işləri 1519-cu ildə tamamlandı. İmamların (ə) məzarı üzərində ən bahalı ağac lövhələrdən oyma naxışlı, fil sümüyü və bürünclə tərtib olunmuş sərdabələr quruldu. Elə həmin dövrdən müasir zamana qədər gəlib çıxmış mərkəzi gümbəzli planda iki gümbəz və dörd minarəli məscid tikilmişdi. 1813-cü ildə isə hər iki gümbəz və minarələrin üzəri qızıl təbəqələri ilə örtüldü, bundan sonra «Qızıl məscid» adlandırılmağa başladı. Məscidin ətrafında yaranmış kənd Bağdadın şəhərkənarı ərazisi kimi Əl-Kazimiyyə (Kazimeyn) adlandırıldı. Hal-hazırda Kazimeyn Bağdadla tamami ilə qarışmış vahid bir ərazidir.

Qızıl məscidin çox zəngin tərtibatı var. 2 günbəz, 4 kiçik minarə və ansambılın yan künclərində ucaldılmış 4 minarə parlaq qızıl rənglə işıq saçır. Məscidin divarları iki sıra çatma tağlı arakəsmələrdən ibarətdir. Üç tərəfdən taxta oymalı sütunlara söykənmiş hündür portallarla (giriş qapıları) bağlanmışdır. Hər portalın mərkəzi hissəsi düzbucaqlı eyvan görkəminə malikdir. Eyvanlar portalların üzərində ucaldılıb və binaların girişi qarşısında yerləşdirilib.

Giriş qapıları binanın hündürlüyü boyda açıq eyvanlar formasındadır, divarları kaşılarla örtülüb, yuxarı hissələr isə qızıl və güzgü stalaktidləri ilə zəngin tərtib olunub. Məscidin divarı Quran ayələri yazılmış əlvan və xatirə yazıları həkk olunmuş kaşılarla örtülüb. Ərəb xətti ilə icra olunmuş kaliqrafiya yazıları incə nəbati ornament fonunda işlənmişdir.

1813-cü ildə rekonsstruksiya (bərpa) işləri zamanı İmamların (ə) türbəsinin tavanı qızıl, emal, rəngli şüşə və güzgü qırıntıları, hissəcikləri ilə örtülmüşdür. Döşəmədən tavana qədər uzanan divarlara rəngli kaşılar vurulmuşdur, taxta qapılar isə gümüş qapılarla əvəz olunmuşdur.

XIX əsrin sonlarında məscidin ətrafındakı divar yenidən tikildi, cənub və şərq tərəfdə isə saatlı qüllələr quraşdırıldı. 1906-cı ildə İmamların (ə) məzarları üzərində böyük gümüş zərih ucaldıldı. Cənub günəşininin şüaları altında məscidin qızıl, əlvan rəngli kaşılarının parıltısı insanı nağıllar aləminə qərq edir.

Hazırladı:
Sənətşünas Nigar Məmmədova (IHQ)




*Sualların cavabı Ayətullah Məkarim Şirazi və Ayətullah Cəfər Sübhaninin kitabları əsasında verilmişdir*

## QURANDA NEÇƏ PEYĞƏMBƏRİN ADI ÇƏKİLİR?

***Sual: Quranda hansı Peyğəmbərlərin adı çəkilmişdir?***

Quranda İslam Peyğəmbəri həzrət Məhəmməddən (s) əlavə, 25 Peyğəmbərin adı çəkilmişdir: Adəm, İbrahim, İdris, İshaq, İsmail, İlyas, Əyyub, Davud, Zul-Kəfl, Zəkəriyya, Süleyman, Şüeyb, Saleh, Üzeyir, İsa, Lut, Musa, Nuh, Harun, Hud, Əlyəf, Yəhya, Yəqub, Yusuf, Yunus.

## PEYĞƏMBƏRİN "ÜLUL-ƏZM" OLMASI NƏ DEMƏKDİR?

***Sual: Ülul-əzm Peyğəmbərləri neçə nəfərdir və onların kitabları necə adlanır?***

Bəşər tarixində 124 000 Peyğəmbər olmuşdur. Onlardan 113-ü nübuvvət məqamından əlavə, risalət, yəni fövqəladə məmuriyyətə də malik olmuşlar. Peyğəmbərlər arasında 5 nəfərin xüsusi imtiyazı və üstünlüyü vardır. Onlara "ülul-əzm" deyirlər. Ülul-əzm Peyğəmbərlərin ayinləri bütün dünyaya aid olmuşdur. Həzrət Nuh, İbrahim, Musa, İsa, Məhəmməd ülul-əzm Peyğəmbərləridir. İlahi kitablar sırasında isə "suhufe-Nuh", "suhufe-İbrahim", "Tövrat", "İncil", "Quran" dayanır. İlk dörd kitab zaman keçdikcə dəyişikliklərə məruz qalıb müqəddəsliyini itirsə də, Qurani-Kərim həzrət Peyğəmbərə vəhy olunduğu zaman onun göstərişi ilə yazıya alınmış və dövrümüzədək artırılıb-əskildilmədən qorunmuşdur.

## ŞEYTAN PEYĞƏMBƏRLƏRƏ QALİB GƏLƏ BİLƏRMİ?

***Sual: Qurani-kərimdə açıq şəkildə bəyan olunur ki, şeytan həqiqi Allah bəndələrinə yaxınlaşa bilməz. Bəs necə olub ki, şeytan həzrət Adəmə yol tapa bilib? Hansı ki, həzrət Adəm həqiqi bəndə olmaqla yanaşı həm də Allahın Peyğəmbəri idi. "Səfiyyullah" ("Allahın seçilmişi") ləqəbini qazanmış bir şəxs adi bəndələr kimi ola bilərmi?!***

Allah-təala şeytanın nəzərinə çatdırdı ki, o həqiqi bəndələri aldada bilməyəcək, çirkin işləri onların nəzərində gözəlləşdirməyə gücü çatmayacaq və nəticədə, onları günah yola çəkməyə müvəffəq olmayacaq. Behiştdə Adəmin başına gəlmiş əhvalat isə şeytan əməli deyildi. Adəmin başına gələn hadisə "tərke-ovla" adlanır. Bu o deməkdir ki, Adəm günaha yol verməmiş, sadəcə, yaxşı bir işi tərk etmişdir. Əslində hər bir şəxs öz iradəsi ilə qəlb yolunu şeytanın üzünə açır. İnsanın icazəsi olmadan şeytan onun qəlbinə daxil ola bilmir. Şübhəsiz ki, Peyğəmbərlər şeytana belə bir icazə verməmişlər.

Bir qədər də aydınlaşdırsaq, şeytanın yol tapması o deməkdir ki, insanın imanının zəifliyi və səhlənkarlığı onun qəlbini şeytana təslim edir. Bu yolla günah insanın gözündə adiləşir. Amma şeytan Peyğəmbərlərin ruhuna nüfuz etmək imkanından məhrumdur. Əgər şeytanın təhriki ilə Adəm qadağan olmuş meyvədən yedisə, bu günah yox, "tərke-ovladır". Meyvə yemək haram iş sayılmamalıdır.

Böyük alimlər Peyğəmbərlərin paklığını əqli dəlillərlə aydınlaşdırmışlar. Adəmin əhvalatı və Peyğəmbərlərin paklığı haqqında daha müfəssəl məlumat əldə etmək üçün "Böyük rəhbərlər" kitabına müraciət edin.



## İSLAM PEYĞƏMBƏRİ (S) YAZIB-OXUMAĞI BACARIRDIMI?

***Sual: Elmi mütaliələr institunun rəisi Seyyid Əbdüllətif öz məqaləsində yazır ki, İslam Peyğəmbəri (s) Peyğəmbərliyə çatmamışdan qabaq yazıb oxumağı bacarırdı. O bunu müəyyən dəlillərlə də əsaslandırır. Alim bildirir ki, Peyğəmbərin (s) savadsız olması haqqında yayılan məlumatlar onun şəxsiyyətinə qarşı böyük bir zülmdür. Bəs həqiqət necədir?***

Gəlin, adı çəkilən alimin gətirdiyi dəlilləri araşdırmazdan qabaq müsəlmanların mövqeyini, onların həzrət Peyğəmbəri (s) savadsız saymasının səbəblərini araşdıraq.

1. Bizim əqidəmizcə, İslam Peyğəmbəri (s) elm və əməl baxımından bütün bəşəriyyətin məhsulu, meyvəsi olmuşdur. Onun səmavi kitabı, qanunları və hökmləri, moizə və nəsihətləri elminə və fövqəladə dini maarifinə aşkar sübutdur.

2. Əqidəmizcə, İslam Peyğəmbəri (s) yaranış aləminin sirlərindən, varlıq aləminə hakim olan qanunlardan xəbərdar olmuşdur. Heç bir müsəlman bu həqiqəti inkar etmir və hamı onun buyuruqları, gətirdiyi kitab qarşısında təzim edir.

3. Əqidəmizcə, həzrət Peyğəmbər (s) bütün bu kamillikləri vəhy yolu ilə qazanmışdır. O bütün bu dərsləri Peyğəmbərlik məktəbində öyrənmişdir. O heç vaxt müəllimdən dərs almamış, kimdənsə elm əxz etməmişdir. Çünki Peyğəmbərlik digər elmlər kimi təhsil yolu ilə əldə edilmir. İlahi biliklər Allah-təalanın layiq bəndələrinə əta etdiyi nemətlərdəndir.

4. Hər bir müsəlman yuxarıda deyilənləri etiraf edərək bildirir ki, həzrət (s) heç vaxt dərs oxumamışdır. Dərs oxumamaq isə bilməmək demək deyildir. Ümumiyyətlə, böyük Peyğəmbərlər dərs oxumasalar da, bəşəriyyətin ən böyük müəllimləri sayılırlar. Həzrət Adəm (ə) də dərs oxumamışdır. Hansı ki, o, Quranın buyurduğu kimi, mələklərin müəllimi idi. Bu məsələlərə “Bəqərə” surəsinin 28-32-ci ayələrində toxunulur.

Əgər savadlı olmaq geniş məlumatlara malik olmaq deməkdirsə, demək, Peyğəmbərlər də savadlı olmuşlar. Yox əgər savadlı dedikdə dərs oxuyan adam nəzərdə tutulursa, demək, Peyğəmbərlər bizim nəzərdə tutduğumuz məktəblərdə elm öyrənməmişlər. Həzrət Peyğəmbərin (s) iftixarlı ömür səhifələri və aşkar Quran ayələri Peyğəmbərin (s) savadsız olduğunu cid-di şəkildə təkzib edir.

5. Müsəlmanlar etiqadlıdırlar ki, həzrət Peyğəmbər (s) besətdən, yəni Peyğəmbərliyə çatmazdan əvvəl kitab oxumamış və yazı yazmamışdır. Bu məsələ Quranda açıq-aşkar bəyan olunur: “Quran nazil olmamışdan qabaq bir kitab oxumazdın və əlinlə yazı yazmazdın..” Ayədə bu da qeyd olunur ki, kafirlərin onun Peyğəmbərliyinə şübhə etməməsi üçün belə olmuşdur. Bu barədə ətraflı şəkildə danışacağıq.

Bəs besətdən sonra necə, Peyğəmbər yazıb-oxumuşdurmu? Bu barədə müxtəlif fikirlər mövcud-dur. Belə bir mövqe daha güclüdür ki, həzrət (s) besətdən sonra da nə yazmış, nə də oxumuşdur. İslami rəvayətlərin bildirdiyinə görə, Həzrət (s) məktubların mətnini deyər, başqaları isə yazardılar.

Bəzi alimlərin fikrincə, Həzrətin yazıb-oxumaması hələ onun bu işləri bacarmamasına dəlil deyil. Çünki Peyğəmbərin yazıb-oxumaq kimi qabiliyyətlərdən məhrum olması inandırıcı deyil. O, bu qabiliyyətlərdən istifadə etməmiş də olsaydı, hər halda yazıb-oxumağı bacarardı.

Mərhum Məclisi buyurur: “Həzrət Peyğəmbərin (s) yazıb-oxumaq bacarığı şübhə doğurmur. Bir belə möcüzələrə, kəramətlərə, elm və biliyə sahib olan bir şəxs yazıb-oxumağı bacarmaya bilməzdi.”

Qayıdaq Peyğəmbərin (s) yazıb-oxuduğunu iddia edən yazıçının dəlillərinə. Bu alim isbat etməyə çalışır ki, İslam Peyğəmbəri (s) besətdən əvvəl və sonra həm yazmağı, həm də oxumağı bacarırmış.

## İSLAM PEYĞƏMBƏRİNİN (S) ƏCDADLARININ DİNİ NƏ İDİ?

***Sual: İslam Peyğəmbərinin (s) əcdadları kim-lər olmuşdur? Deyirlər ki, onlar İbrahim (s) dinində olmuşlar. Bəs nə üçün İsa (ə) dinini qəbul etməmişlər?***

Tarixi mənbələrin bildirdiyinə görə, İslam Peyğəmbərinin (s) ata-babaları hamısı bir Allaha sitayiş etmişlər. Onların İbrahim (ə) ayinində olması da bu mənadadır. Çünki, həzrət İbrahim (s) böyük tövhid qəhrəmanlarındandır və bütpərəstliklə, şirklə mübarizə aparmışdır. Həzrət İbrahim öz mübarizəsi ilə bütpərəstlik və şirkin sütunlarını sarsıtmışdır. Ona görə də Quranda bəzən müsəlmanlar “İbrahim milləti”, “İbrahimin ardıcılı” adlandırılmışlar.

Hicaz mühitində və ərəblər arasında yeganə tanınmış ayin həmin İbrahim ayini olmuşdur. İbrahimin bəzi ayinləri hətta bütpərəstlər arasında da tanınmışdır. Ərəb dilində İbrahim ayininə “Hənif” dini deyirlər. Yəhudi və məsihi dini Hicaz torpaqlarına bir o qədər də nüfuz edə bilməmişdir. Təkcə Mədinədə, Xeybərdə və Yəmən sərhədlərində bir qrup kəlimi və məsihi məskunlaşmışdır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, İslam Peyğəmbərinin (s) əcdadları İbrahim ayinində olmuşlar.

# TİCARƏTLƏ ƏLAQƏDAR MÜXTƏLİF FİQHİ MƏSƏLƏLƏR

*Sual: Bəzi istehsal mərkəzlərində digər fabrik və zavodlarda hazırlanmış müxtəlif hissələri toplayaraq onlardan qabaqcıl xarici dövlətlərdən birinin adı ilə avadanlıq istehsal edib satışa buraxırlar. Görəsən bu iş (ğəşş və tədlis) bir növ fırıldaq hesab olunurmu? Fırıldaq hesab olunduğu təqdirdə, müştərinin bu işdən xəbərdar olub-olmamasının, üzərində alqı-satqı aparılan əşyanın al-veri düzgündür, yoxsa batil?*

**Cavab:** Əgər qeyd olunan hissələrin və ya istehsalı başa çatmış müştəri üçün malın daxili və ya xarici olmasını müəyyənləşdirmək mümkün olmasa, həmin şeyin yığılması və istehsalına fırıldaq demək olmaz. Amma malı həqiqətə uyğun olmayan adlarla təqdim etmək haramdır və əgər al-ver həmin əşyanın üzərində həqiqətə uyğun olmayan nişanələrlə (etiketlərlə) aparılıbsa, müamilə düzgündür. Lakin müştəri sonradan həqiqəti başa düşərsə, al-veri pozmağa ixtiyarı vardır.

*Sual: İstehsalçıların və satıcıların öz fabrik və mağazalarının üzərində əcnəbi reklamlar vurması caizdirmi? Və yaxud müştəri və alıcıların diqqətini cəlb etmək üçün uşaq paltarlarının üzərində xarici şəkil və hərflər yazmaq olarmı?*

**Cavab:** Əgər müştərini aldatmaq məqsədi daşımasa, eləcə də əcnəbi mədəniyyətinin təbliği hesab olunmasa, eybi yoxdur. Amma islam ölkəsinin qanunlarına riayət etmək lazımdır.

*Sual: Qeyri-müsəlmanlarla ticarət edən zaman elmi və maddi cəhətdən daha çox fayda qazanmaq üçün (onlar özü başa düşmədiyi təqdirdə) yalan və fırıldaq işlətməyin hökmü nədir?*

**Cavab:** Alqı-satqılarda və ticarətdə yalan və fırıldağa icazə verilmir, hətta qarşı tərəf qeyri-müsəlman olsa da.

*Sual: Ticarətdə satılan maldan nə qədər qazanc əldə etməyə icazə verilir?*



**Cavab:** Qazanc əldə etməyin müəyyən bir həddi yoxdur. Buna görə də zülm və insafsızlıq həddinə çatmayınca və dövlət qayda-qanunlarının ziddinə olmayınca işkalı yoxdur. Amma yaxşı olar ki, hətta müstəhəbdir ki, satıcı öz dolanışıq xərclərini çıxarmaq miqdarında qazanc əldə etməklə kifayətlənsin.

*Sual: Bir nəfər öz mülkiyyətində olan sudan ayrı-ayrı şəxslərə müxtəlif qiymətlərlə satır. Bu suların hamısının bir quyu və arxdan olmasını nəzərə almaqla, qiymətlərin müxtəlif olmasına öz etirazımızı bildirməyə haqqımız varmı?*

**Cavab**: Əgər satıcı həmin suyun həqiqi sahibidirsə və ya şəri nöqteyi-nəzərdən onu satmaq səlahiyyəti vardırsa, digərlərinin qiymətin müxtəlif olmasına etiraz etməsinə haqqı yoxdur.



***Sual:** Əgər bir malı şirkətdən azad bazarda olan qiymətdən aşağı olaraq dövlətdə təyin olunmuş qiymətə alsam, onu azad bazarda aldığımdan baha qiymətə, hətta üçqat bahasına sata bilərəmmi?*

**Cavab:** Əgər onun satışı dövlət tərəfindən qadağan olunmayıbsa, qiymətin artırılması da müştəriyə qarşı zülm və insafsızlıq hesab olunmazsa, işkalı yoxdur.

***Sual:** Mən elektron cihaz və avadanlıqları istehsalçılarındanam. Həmin cihazları mövcud bazar və istehlakçılar qəbul etdiyi təqdirdə, istədiyim qiymətə sata bilərəmmi?*

**Cavab:** Dövlət tərəfindən qiyməti müəyyən olunmamış malların satışı alıcı ilə satıcı arasında anlaşma hasil olduqda və alıcıya qarşı zülm və insafsızlıq olmadıqda işkalı yoxdur.

***Sual:** İslam nöqteyi-nəzərindən varlanmağın hökmü nədir və onun həddi-hüdudu necədir? Mümkündürmü ki, bir şəxs kasıbların, fəqirlərin haqqını verdikdən sonra dövlətli olsun? Görəsən İslamın varlanma ilə mübarizəsi təkcə o şəxslərə aid olur ki, onlar xüms və zəkat vermirlər, yoxsa bu vergiləri verən şəxslərə da aid olur və ümumiyyətlə mümkündürmü ki, insan bütün şəri vergilərini verdikdən sonra həddən artıq varlana bilsin?*

**Cavab:** Varlıların mallarına aid olan şəri vergilər təkcə xüms və zəkatla bitmir və İslam dini də var-dövlətin artması ilə müxalif deyil, bu şərtlə ki, onun toplanması qanuni yollarla həyata keçirilsin, həmin şəxs də öz malına aid olan bütün vergiləri ödəsin və onu şəriətdə müəyyən olunmuş, İslam dini və müsəlmanların xeyrinə olan yerlərdə işlətsin. Belə olan surətdə insanların varlanmasının işkalı yoxdur.

***Sual:** Bizim aramızda adətdir ki, digər bir şəxs üçün maşın almaq işini öz öhdəsinə götürən şəxs həmin maşını məsələn, 1 milyon tümənə aldığı təqdirdə maşın aldığı şəxsə onu 1 milyon yüz min tümənə aldığını deyir və artıq qalanını öz zəhmət və təlaşının haqqı hesab edərək özünə götürür. Bu al-ver düzgündürmü?*

**Cavab:** Əgər o şəxs başqa şəxs tərəfindən maşın almaqda vəkildirsə, bu surətdə maşını müəyyən bir qiymətə danışıb almaq vəkil tutan şəxsin haqqı hesab olur və vəkilin haqqı yoxdur ki, ondan əlavə bir şey tələb etsin. Bəli, o, öz vəkaləti üçün müəyyən haqq tələb edə bilər. Amma əgər maşını özü üçün alıb ondan maşın almağı istəyən şəxsə satsa, onu qarşılıqlı razılaşma əsasında sata bilər və bu surətdə də yalandan maşını bir qiymətə almasını deyə bilməz, söz yox ki, yalan danışmaq al-veri batil etmir.

***Sual:** Bəzi qardaşlar avtomobil təmir sexlərində işləyirlər; bəzən maşın satanlar onlara müraciət edir, az bir xərclə öz maşınlarını yüngülvari təmir etdirmək istəyirlər. Onlar güman edirlər ki, maşının zahiri görkəmi onu müştəriyə satmaq üçün kifayət edər. Görəsən təmirçilər tərəfindən bu işləri görmək düzgündürmü?*

**Cavab:** Əgər bu iş fırıldağa səbəb olarsa və ustalar maşın sahibinin bu eybləri müştəridən gizlədəcəyini bilərlərsə, düzgün deyil.

# İBRƏTDOLU HEKAYƏLƏR

## Gənc günahkarın etirafı

Mənsur ibn Əmmar deyir:

Bir gecə küçədən keçərkən bir evdən belə bir münacat eşitdim: «Pərvərdigara! Sənə qarşı itaətsizlikdən yox, şeytana və nəfsimə aldandığımdan günah etmişəm. Nəticədə Sənin qəzəbinə gəlmişəm». Bu sözləri eşidib Qurandan bir ayə oxudum: «Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar, xidmətçiləri isə Allahın buyruqlarını yerinə yetirən daşqəlbli və sərt təbiətli mələklərdir».

(«Təhrim» surəsi, ayə 6). Mən bu ayəni oxuduqdan sonra həmin gəncin naləsi ərşə ucaldı. Səhəri gün həmin qapıdan keçərkən bir qoca arvadın ağlayaraq yanındakılara belə dediyini eşitdim: «Gecələr Allah qorxusundan ağlayan bir oğlum var idi. Gecə o, münacat oxuyarkən küçədən keçən bir şəxs əzab ayəsi oxudu. Oğlum da fəryad çəkib dünyasını dəyişdi».

Yaxınlaşıb dedim: «Ana, o ayəni mən oxudum və oğlunun dünyadan getməsinə səbəb oldum, olarmı onun qüslunu mən verim?» Qarı razılaşdı. Oğlanın üzündən örtüyü qaldırdıqda sinəsində yaşıl xətlə yazılmış bir yazı gördüm: «Biz bu bəndəyə tövbə suyu ilə qüsl verdik».

Məşuqdən özgəyə açma sirrini,
Dağda-daşda gəzmə qiblə yerini.
Bil, məşuq incisə eşqə düşəndən
Naləylə fəryadla çətin gedə qəm.
Elə ki, qırıldı əllər ətəkdən,
Hicran alovunda qovrular bədən.
Pərvanə görüşçün gözlər gecəni,
Şəm olmasa, nalə olar həmdəmi.
Çün şəmə vermişdir nə ki, sirri var
Başqası nə bilsə olası aşkar.
Asmışam boynumdan bəndəlik ipin,
O bir olan ağam mehriban, həkim.
Sordum eşq odundan varmı bir əlac,
Buyurdu ki, vüsal ağrıya möhtac.

## Həzrət Süleymanın (ə) təvazökarlığı

Həzrət Süleyman (ə) o qədər cah-cəlallı, əzəmətli idi ki, tayı-bərabəri yox idi. Amma belə bir məqam sahibi özünü o qədər təvazökar aparardı ki, hətta qarışqa da onu mühakimə edib haqqını istəyərdi.

Bir gün Süleyman əlinin üstündəki qarışqanı yerə qoydu. Amma Süleyman o qədər təvazökar idi ki, qarışqa ona etiraz edib dedi: «Bu xudpəsəndlik nədir? Məgər bilmirsən ki, mən də sənin kimi Allah məxluquyam? Sənin nə üstünlüyün var ki, mənimlə belə rəftar edirsən?»

Qarışqanın sözləri Süleymanı mütəəssir etdi. Düşündü ki, qiyamət günü bu sayaq mühakimə edilsə çətin olacaq. Bu fikirlərdən ayrıldıqdan sonra özünə gəlib əmr etdi ki, qarışqanı onun hüzuruna gətirsinlər. Süleyman dedi:

- «Nə üçün belə qəzəblə etiraz etdin?» Qarışqa belə cavab verdi:
- «Mənim bədənim zəifdir. Sən məni tutub yerə atanda bədənim əzildi, narahat oldum. Bu rəftarına görə də etiraz etdim». Süleyman həmişəki təvazökarlıqla dedi:
- «Mən bu işi pis niyyətlə etməmişəm, sənə verdiyim əziyyətə görə üzr istəyirəm».

Bəli, misilsiz əzəmətə malik Süleyman ən zəif bir varlığı bilmədən azacıq incitdiyi üçün üzr istəyir!

Qarışqa deyir:

- «Mən səni bağışladım. Bir şərtlə ki, dünyaya şəhvət və nəfs istəkləri ilə üz tutmayasan, sərvəti insanlara sərf etmək üçün istəyəsən, israfa yol verməyəsən, ləzzətlərə uyub milləti unutmayasan, kömək istəyənlərə öz yardım əlini uzadasan». Qəlbi zəiflərə mərhəmətlə dolu olan Süleyman qarışqanın şərtlərini qəbul etdi, qarışqa da Süleymanı bağışladı.

Ariflər özünə salmamış nəzər,
Baxışları daim fələkdə gəzər.
Böyüklük sayılmaz görkəm, danışıq,
İmandır insana verən yaraşıq.
Özün kiçildəni, Allah ucaldar,
Özün böyük bilən özün aldadar.
Həqiqəti görən keçir «mən»indən,
Ucalır göylərə qopur tənindən.
Məğrurda, lovğada gəl axtarma din,
Üsyankar bəndəyə taleh də bədbin.

«Allahummə və əsəlukə sualə məniştəddət faqətuhu»

(«Pərvərdigara! Səndən ehtiyacı son həddə çatmış şəxs kimi istəyirəm.»)

# Tövbə edən günahkarın aqibəti

Bir gün tanınmış abid Yusif ibn Hüseyn məclisdə moizə edirdi. Günahkarlığı ilə tanınmış Əbdül-Vahid ibn Zeyd də bu məclisdə iştirak edirdi. Yusif dedi: «Mehriban Allah günahkarları özünə doğru elə dəvət edib ki, sanki onlara möhtacdır». Bu sözlərdən təsirlənən Əbdül-Vahid yerindən dik qalxıb fəryad edərək birbaşa qəbristanlığa üz tutdu. Həmin gecə Yusifə yuxuda belə nida olundu: «Günahkar cavanı tap». Üç gün Əbdül Vahidi gəzən Yusif, nəhayət, onu qəbristanlıqda tapdı. Üzünü torpağa qoyub ağlayan Əbdül-Vahid Yusifi görüb «üç gündür səni göndəriblər, indi gəlirsən» - dedi və gözlərini əbədi olaraq yumdu!

«Allahummə mövlayə kəm min qəbihin sətərtəhu və kəm min fadihin minəl-bəlai əqəltəhu və kəm min isarin vəqəytəhu və kəm min məkruhin dəfətəhu və kəm min sənain cəmilin ləstu əhlən ləhu nəşərtəhu».

(«Pərvərdigara, ey mənim mövlam! Yol verdiyim nə çox çirkinliyi örtmüsən, nə çox ağır bəlaları məndən kənarlaşdırmısan, məni nə çox büdrəmələrdən hifz etmisən, məni nə çox xoşa gəlməyən işlərdən müdafiə etmisən, layiq olmadığım nə çox tərifləri xalq arasında yaymısan.»).

Cümə axşamı gecənin qaranlığında bəndənin dua və tövbə halında "Ey mənim Ağam, ey mənim Mövlam" çağırmasının başqa bir mənzərəsi var. Həzrət Musa (ə) öz münacatında belə ərz etdi: "Ehtiyac içindəyəm və xəzinəndə olmayan bir şey məndədir." Həzrət Musadan (ə) soruşuldu ki, o nədir? Həzrət Musa (ə) belə ərz etdi: "Sənin kimi Allahım var."[54] Çirkinliklərin örtülməsi böyük nemətlərdən və Allahın öz bəndəsinə olan əsl ehsanlarındandır. Əgər Allah-Taala dünyada pis əməllərin üstünü örtürsə Qiyamətdə tövbə etmiş mömin bəndəsinin günahlarına hökmən pərdə çəkəsidir. Həzrət Peyğəmbər (s) buyurur: «Bu dünyada əgər bəndənin bir günahı örtülürsə, axirətdə də örtüləcəkdir.»

Peyğəmbər (s) və Əhli-beytdən (ə) nəql olunmuş dualarda tez-tez Allahın "eybləri örtən" sifətinə işarə olunur. Tövbə edən günahkara müjdə verilir ki, mehriban Allah mömінin hörmətini dünya və axirətdə qoruyur, onun çirkinliklərini örtür. İbn Fəhəd Hillinin məşhur "Uddətud-dua" kitabında mühüm bir hədis nəql olunur:

Cəbrail (ə) Peyğəmbərə (s) dedi: "Allah-Taala sənin üçün hədiyyə göndərib. Bu, ərş xəzinələrindən olan kəlmələrdir. Allah Öz ərşini bu kəlmələrə görə əziz tutub." Sonra həmin kəlmələri oxumağa başladı: " Ey yaxşılıqları aşkarlayıb pislikləri örtən Kəs, ey günaha görə cəzalandırmayıb, hörmət pərdəsini götürməyən Kəs, ey əfvi əzəmətli, bağışlaması geniş olan Kəs, ey iki qüdrət əli açılmış Kəs, ey hər sirrin sahibi, şikayətlərin sonu, ey böyüklüklə keçən (bağışlayan) qapayan, ey neməti əzəmətli, ey neməti istənilmədən verən, ey Rəbb, ey Ağa, ey Mövla, ey rəğbət və şövqümüzün sonu! Səndən istəyirəm ki, vücudumu odla çirkin surətə döndərməyəsən." Həzrət Peyğəmbər (s) Cəbrailə (ə) buyurdu: "Bu kəlmələrin savabı nədir?" Cəbrail (ə) dedi: "Bu kəlmələrin savabından agahlığa güc çatmaz. Əgər yeddi göy və yeddi yerin mələkləri toplanıb Qiyamət gününədək bu duanın savabını vəsf etsələr, onun mində biri üçün yetərli olmaz. "Ya mən əzhərəl-cəmilə və sətərəl-qəbihə" deyənin günahı örtülər, dünyada rəhmətə və axirətdə yaxşılığa çatar və dünya ilə axirətdə min pərdəyə bürünər. "Ya mən ləm yuaxiz bil-cərirəti və ləm yəhtikis-sitrə" deyəni Allah Qiyamətdə hesaba çəkməz və pərdələr götürülən gün onun pərdəsi qalar. "Ya əziməl-əfv" deyənin günahları dəryaca da olsa belə, bağışlanar. "Ya həsənət-təcavuz" deyənin hətta böyük günahları belə əfv edilər. "Ya vasiəl-məğfirəti" deyən Allahın rəhmətinə qərq olar. "Ya basitəl-yədəyni bir-rəhməti" deyənə Allah rəhmətlə qüdrət əlini açar. "Ya sahibə kulli nəcva və muntəha kulli şəkva" deyənə hər bir müsibətin savabı əta olunar. "Ya əzimәl-mənni" deyən bütün arzularına çatar. "Ya mubtədiən bin-niəmi qəbləstihqaqiha" deyənə şükür edən bəndənin savabı verilər. "Ya Rəbbəna və Səyyidəna" deyən haqqında Allah-Taala buyurar: - "Ey mələklərim! Şahid olun ki, onu bağışladım..." "Ya Mövlana" deyənin qəlbi imanla doldurular. "Ya ğayətə rəğbətina" deyənə xalqın istəyincə əta olunar. Bəndə "əsəlukə ya Allahu ən la tuşəvvihə xəlqi bin-nari" dedikdə Allah buyurar: "Bəndəm oddan qurtuluş istədi. Ey mələklər, şahid olun ki, onu, ata-anasını, qardaşlarını, ailə-övladını, qonşularını azad etdim. Onun min od əhli haqqında şəfaətini qəbul etdim və onu Cəhənnəmdən qurtardım."

Cəbrail (ə) dedi: "Ya Məhəmməd, bu sözləri təqva əhlinə öyrət, münafiqlərə yox! Bu duanı oxuyanın duası qəbuldur..."

Möhtərəm oxucular bu duadakı böyük savablara təəccüb etməməlidirlər. Çünki Allahın rəhməti sonsuz, mükafatları tükənməzdir.

Həzrət Əli (ə) "Kəm min qəbihin sətərtəhu" cümləsi haqqında buyurur: "Zəlzələ tufan, sel, yanğın, qəza, səma bəlaları, qıtlıq, bahalıq, ağır müsibətlər, yaxınların itkisi kimi ağır bəlaları məndən uzaqlaşdırdın. Məni imanımı aparacaq, əxlaqımı məhv edəcək, saleh əməllərimi fənaya döndərəcək, xalq arasında hörmətdən salacaq büdrəmələrdən hifz etdin. Rahatlığımı pozacaq, pərişanlığa qərq edəcək, yuxumu gözümdən alacaq, ruhuma və qəlbimə narahatlıq gətirəcək pislikləri məndən dəf etdin. Əməlnaməm günahla dolu olsa da, məni xalq arasında əziz etdin. Ata-ana, bacı-qardaş, qohum-əqrəba arasında məni üstün tanıtdırdın, mənə tərif dedilər – halbuki, bütün bunlara layiq deyildim!"

"Allahummə əzumə bəlai və əfrətə bi suu hali və qəsurət bi əmali və qəədət bi əğlali"

("Pərvərdigara, bəlam böyükdür, halımın pisliyi həddini aşmış, əməllərim yetərsiz olmuş, zəncirlərim məni yerə oturtmuş.")

Bu cümlələrdən aydın olur ki, günah xəstəsi, üsyan əsiri, maddiyyat düşkünü, halının pisliyi həddini aşmış bəndə alim və həkim, qadir və güclü həkimə yol tapmışdır. Bu həkim öz mərhəmət və məhəbbəti sayəsində xəstəyə şəfa vermək üçün Özü onu dəvət etmişdir.

# MİQDAD

## Dörd böyük səhabədən biri

***Dörd böyük səhabədən biri olan Miqdadın adını çox eşitmişik, amma Əbazər Qəffari, Səlman Farsi və Əmmar Yasirin həyatları və fəaliyyətləri barəsində çoxlu eşidib, oxusaq da, Miqdadın həyatı barədə kifayət qədər məlumatımız yoxdur. Belə qərara gəldik ki, bu qısa mətndə tarixin möhkəm və qılınc şəxsi olan Miqdadın həyatı barədə oxuculara məlumat verək.***

**Miqdadın həyatı**

Əmr ibn Səlbənin oğlu Miqdad Bəhra adlı qəbilələrində bir nəfəri qətlə yetirərək Kindi qəbiləsinə qaçır, onlarla əhd bağlayaraq "Miqdad Kindi" adlanır. Həmin qəbilədə də bir nəfəri öldürərək Məkkəyə yollanır, Əsvəd ibn Əbd Yəğus adlı bir şəxslə əhd-peyman bağlayır. Bəni-Zəhrə qəbiləsindən olan bu şəxs Miqdadı cahiliyyət adətləri əsasında oğulluğa götürür. Bundan sonra Miqdad "Miqdad ibn Əsvəd" adlanır. Sonralar "Onları öz atalarının adı ilə çağırın, bu, Allah yanında ədalətə daha yaxındır" ayəsi nazil olduqda Miqdad "Miqdad ibn Əmr" adlandırıldı. Miqdadın kunyəsi Əbu-Məbəd idi. Miqdad hündür boylu, cüssəli qiyafəyə malik bir şəxs idi.

Miqdad İslam dinini ilk qəbul edənlərdən və Həbəşəyə hicrət edənlərdəndir. Az bir müddətdən sonra Həbəşədən Məkkəyə qayıdan Miqdad, Peyğəmbər (s) Mədinəyə mühacirət etmək istədikdə müsəlmanlar kimi Məkkəni tərk edə bilmədi.

Peyğəmbər (s) Übəydə ibn Haris adlı bir şəxsi qoşuna rəhbər təyin edərək, döyüşə göndərdi. Qoşun Məkkəlilərin böyük bir dəstəsi ilə rastlaşsa da müharibə baş vermədi. Fürsət tapan Miqdad müsəlmanlara qoşularaq Mədinəyə gəlir. Allahın Rəsulu (s) onunla Cəbbar ibn Səxra adlı şəxs arasında qardaşlıq əqdi oxuyur.

**Miqdadın fəzilətləri**

Miqdad böyük məqama və fəzilətlərə sahib olan səhabələrdəndir. Allahın Rəsulu (s) Allah tərəfindən dörd nəfəri sevməyə məmur seçilmişdi. Onlardan biri Miqdad idi. Miqdad Allah Rəsulundan (s) sonra Əlinin (ə) haqq olduğu və Əhli-beytin (ə) məzlumiyyəti barədə bir dəqiqə olsun belə şəkk etməyən şəxslərdəndir. O, daim əlində qılınc tutaraq, gözlərini Həzrət Əlinin (ə) gözlərinə dikərək Həzrətin (ə) əmrini gözləyib. Miqdad Həzrət Zəhraya (ə) namaz qılan şəxslərdəndir.

İmam Sadiq (ə) buyurur: "Miqdadın bu ümmətin arasındakı məqamı Qurandakı Əlif hərfi kimidir ki, heç bir şey ona birləşmir"

Miqdad Mədinədə Peyğəmbərin (s) əmisi qızı, Zubəyr ibn Haris ibn Əbdül-Müttəlibin "Zubaə" adlı qızı ilə ailə qurur.

İmam Sadiq (ə) buyurur: "Allahın Rəsulu (s) Zubəyr ibn Harisin qızı Zubaəni Miqdadla evləndirdi ki, izdivaclar asan baş tutsun və camaat bu işdə də Allah Rəsuluna (s) iqtida edərək Allah yanında onların ən əzizinin təqvalı olduğunu bilsinlər."

**Miqdad Peyğəmbərin (s) xidmətində**

Miqdad Bədr, Uhud, Xəndək və s müharibələrdə iştirak edib. O, mahir oxatan idi. Peyğəmbər (s) dünyasını dəyişdikdən sonra Misirin fəth olunmasında iştirak edənlərdəndir.

Bədr müharibəsi başlamamışdan öncə Allahın Rəsulu (s) çox narahat və nigaran idi. Məsləhətləşmək üçün səhabələri topladıqda, bəziləri məyusedici sözlər danışmağa başladı. Miqdad ayağa qalxaraq deyir: "Ey Allahın Rəsulu (s)! Məmur seçildiyiniz yerə gedin, biz də Sizinləyik. Bəni-israilin Musaya (ə) "Sən Allahınla gedib düşmənlərlə döyüşün, biz burada əyləşmişik" dediyini demirik. Biz Səninlə birlikdə döyüşə gedəcəyik. And olsun Səni haqqa məbus edən Allaha, əgər dənizin dibinə də girsən, Səninlə birgəyik." Peyğəmbər (s) onun barəsində dua etdi.

Bədr döyüşündə Miqdadın böyük əməyi oldu. Bu müharibədə müsəlmanların cəmi üç atı var idi. Həmin atlardan biri, "Bəzcə" və ya "Səbhə" adlı at Miqdada məxsus idi. ("Yəsub" adlı at Zubəyr, "Səbl" adlı at Mərsəd ibn Əbi Mərsəd Ğənəviyə məxsus idi.)

**Miqdad səqifədə**

Miqdad Əbu-Bəkrə etiraz edən on iki nəfərdən biridir. Miqdad səqifədə ayağa qalxaraq dedi: "Ey Əbu-Bəkr, öz nəfsinə diqqət et, özün barəndə düşünüb günahların üçün ağla ki, bu sənin üçün yaşayışında və ölümündə daha yaxşıdır. Allahın və Peyğəmbərinin (s) təyin etdiyi bu əmri öz sahibinə geri qaytar. Dünyaya söykənmə, onun alçaq şəxsləri

səni qürurlandırmasın. Tezliklə dünyan məhv olub Allahına tərəf qayıdacaqsan və əməlinin qarşılığını alacaqsan. Sən özün bilirsən ki, bu iş (Xilafət) Əliyə (ə) məxsusdur. O, Peyğəmbərdən (s) sonra onun sahibidir. Sənə nəsihət verdim. Bəlkə nəsihətimi qəbul etdin."

**Miqdad Peyğəmbərdən (s) sonra**

Allahın Rəsulu (s) dünyasını dəyişdikdən sonra Miqdad daim Əmirəl-Möminin Əlinin (ə) xidmətində dayanaraq, Əhli-Beytin (ə) qəsb olunmuş hüququnu müdafiə edirdi.

Şəbi nəql edir ki, Osmanın xəlifə seçildiyi şura təşkil olunduqda camaat daruş-şurada (şura evində) toplaşdılar. Miqdad ora gəlib dedi: "Ey camaat! Dediklərimə qulaq asın. Mən Miqdad ibn Əmrəm. Deyirəm əgər Əliyə (ə) beyət etsəniz, eşidib itaət edəcəyik. Əgər Osmana beyət etsəniz eşidib itaət etməyəcəyik." Əbdullah ibn Rəbiə ibn Muğeyrə Məxzumi ayağa qalxaraq dedi: "Əgər Osmana beyət etsəniz, eşidəcək və itaət edəcəyik. Əgər Əliyə (ə) beyət etsəniz eşidəcək amma itaət etməyəcəyik. " Miqdad dedi: "Ey Allahın, Peyğəmbərinin (s) və Allah kitabının düşməni, saleh camaat sənin sözünü qəbul etməyəcək."

Əbdullah dedi: "Sənin kimi birisi qureyşin işinə müdaxilə etməyə cürət edə bilməz." Şura günü Miqdad dedi: "Məni özünüzlə birgə şuraya daxil edin." Qəbul etmədilər. Dedi: "Yaxınlığınızda olmağıma icazə verin." Qəbul etmədiklərində Miqdad dedi: "İndi ki, mənim bu iki istəyimi qəbul etmirsiniz, Bədr müharibəsində və beyəti-rizvanda hazır olmayan, Uhud müharibəsindən qaçanla (məqsədi Osman idi) beyət etməyin." Osman dedi: "Əgər mən xəlifə olsam, Səni əvvəlki vəziyyətinə qaytaracağam. (qulluğa)"

Miqdad dünyasını dəyişdikdə Osman onun qəbrinin kənarında dayanıb təriflər deməyə başladı. Bunu görən Zubəyr bu məzmunda bir şeir söylədi: "Ölümümdən sonra Mənə nalə edib, novhə oxuduğunu görürəm. Sağ olarkən Mənə azuqə vermirdin."

Şəbi deyir: "Şuradan bir gün sonra Miqdad Osmanı xilafətə çatdıran Əbdur-rəhmanla rastlaşdı. Onun əlindən tutaraq dedi. Əgər bu işi dünyaya xatir etmisənsə, Allah malını artırsın. Əbdur-rəhman dedi: qulaq as, qulaq as... Miqdad dedi: Qulaq asmıram. Əlini onun əlindən çəkərək getdi. Bundan sonra Həzrət Əlinin (ə) xidmətinə gedərək dedi: Qalx və döyüş ki, Səninlə birgə döyüşək. Əli (ə) buyurdu: Tərəfdarlarımız olmadan kiminlə vuruşaq, Allah sənə rəhmət etsin."

**Miqdad və Əhli-beytin (ə) məhəbbəti**

Əbdullah ibn Cündəb deyir: "Osman xəlifəliyə çatdığı gün Miqdadın yanına getdikdə belə dediyini eşitdim: Allaha and olsun, bu ailə kimi məzlum olanı görməmişəm. Orada əyləşmiş Əbdur-rəhman ibn Ovf dedi: Miqdad, bu işlərdən sənə nə?!" Miqdad dedi: Allaha and olsun ki, Onları Allahın Rəsuluna (s) xatir sevirəm. Qureyşə təəccüb edirəm ki, Allah Rəsulunun (s) qohumu olduqlarına görə camaatın yanında fəxr edirlər, amma Əhli-beytinin (ə) haqqını əlindən alırlar. Əbdur-rəhman dedi: Allaha and olsun, şurada sizin haqqınızda və sizin xeyrinizə çalışdım.

Miqdad dedi: Allaha and olsun, haqq əmr edən və ədalətli bir şəxsi məhrum və tərk etdin. Allaha and olsun, əgər qureyşin əleyhinə döyüşmək üçün köməyimiz olsaydı, Bədrdə və Uhudda vuruşduğumuz kimi vuruşardıq. Əbdur-rəhman dedi: Anan matəmində əyləşməsin, ehtiyatlı ol ki, camaat bu sözlərini eşitməsin. Fitnə və təfriqə salan olmağından qorxuram. Miqdad dedi: Haqq və Vəlilərinə tərəf dəvət edən şəxs fitnə və təfriqə salan ola bilməz. Fitnəkar o şəxsdir ki, camaatı batilə salıb və nəfsi istəklərini haqqdan önə keçirib. Əbdur-rəhmanın əhvalı dəyişdi, ayağa qalxıb dedi: Əgər məqsədinin mən olduğumu bilsəydim, səninlə münasibətim başqa cür olardı. Miqdad dedi: Ey Əbdur-rəhman, məni hədələyirsən?! Sonra ayağa qalxıb çıxıb getdi.

Həzrət Əlinin (ə) dostları Osmanı xilafəti qəsb etməkdə günahkar bildiklərindən onun işlərindən də nifrət edirdilər. Osman da Əli (ə) və yaxınlarına qarşı xüsusi "həssasiyyətlə" yanaşırdı. Onları növbənöv məhrumiyyətlərə və əzablara düçar edirdi. Əbazər Qəffarini Rəbəzə çölünə sürgün etdi. Əmmara zərbə vurdurduğundan sinəsində çat əmələ gəlmişdi. Əbdullah ibn Məsudun dişlərini sındırdı və Miqdada hədə-qorxu gəldi.

**Miqdad və Osman**

İmam Baqir (ə) buyurur: "Osman Miqdada dedi: Allaha and olsun, ya gərək işlərindən əl çəkəsən ya da səni əvvəlki vəziyyətinə qaytaracağam. Miqdad ölüm ayağında olarkən Əmmara dedi: Mənim tərəfimdən Osmana çatdır ki, mən Allahıma tərəf qayıtdım."

**Miqdadın vəfatı**

**Miqdad ölüm ayağında olarkən ölümü barəsində Osmana xəbər verilməməsini vəsiyyət etdi. Miqdad hicrətin 33-cü ilində 70 yaşında Mədinənin bir fərsəxliyində yerləşən "Cərf" adlı məntəqədə dünyasını dəyişdi. Müsəlmanlar Miqdadın cənazəsini Mədinəyə gətirərək dəfn etdilər. Əmmar Yasirin onun cənazəsinə namaz qıldığı nəql olunub.**



# FEYZ KAŞANİ



**Feyz Kaşani 14 səfər 1007-ci ilində Kaşan şəhərində elm və təqva dolu bir xanədanda dünyaya gəlib və miladi ilə 1670-ci ildə dünyadan köçüb.**

Atası Molla Fəthullah Kaşani və Ziyauddin Muhəmməd Razinin şagirdlərindən olan Rəziyuddin Şah Murtəza Kaşan Elmlər Hövzəsinin böyük fəqihlərindən olub.

Anası alimə və şairə olan Zəhra Xatun Rey şəhərinin böyük alim və fəqihlərindən olan Ziyaul-Urəfa Razinin qızıdır.

Feyz Kaşani Şah Murtəzanın dördüncü uşağıdır. İki yaşında atasını itirdikdən sonra dayısı və əmisi onun və qardaşlarının təhsilini boynuna götürürlər. Feyz Kaşani digər qardaşlarından daha ağıllı olduğu üçün yetkinlik çağına qədər Kaşanda dayısı və əmisinin yanında müqəddimə elmini tamamlayır.

İyirmi yaşında böyük qardaşıyla birlikdə o dövrdə müxtəlif elm ustadlarının iqamət etdiyi elm mərkəzi İsfahana gedir.

**Feyz Kaşaninin İsfahandakı məşhur ustadları:**

1. Molla Muhəmməd Təqi Məclisi (r.ə)
2. Şeyx Bəhai (r.ə)
3. Mir Damad (r.ə)
4. Molla Sədra (r.ə)
5. Seyyid Məcid Bəhrani (r.ə). Şirazda iki il iqamət edərək bu böyük şəxsin elmindən də istifadə edib.

Feyz Kaşani həcc yerinə yetirmək məqsədiylə Məkkəyə müşərrəf olur. Məkkədə böyük fəqih Şeyx Zeynuddin Amulinin nəvəsi Şeyx Muhəmmədin hüzurundan faydalanaraq ondan hədis nəql etmə icazəsi alır.

Məkkədən dönərkən İranın bir çox şəhərini gəzərək müxtəlif böyük fəqih və muhəddislərin dərslərindən elmi istifadələr edir. Bu dövrlərdə Molla Sədranın Qum şəhərində sürgündə təkbaşına yaşadığını fürsət sayaraq Əbdürrəzzaq Lahici ilə birlikdə onun yanında riyaziyyat və Qərbi elmləri öyrənmək qərarına gəlib, 8 il boyunca gecə gündüz ustadın o mənəvi elmlərindən istifadə edirlər.

Bu zaman içərisində (hicri 1029-1040) Molla Sədra iki qızını bu iki səmimi və xüsusi şagirdiylə evləndirərək onlara Feyz və Fəyyaz ləqəblərini verir. Molla Sədranın Şiraz hakimi tərəfindən Şiraza dəvət edildə Feyz Kaşani də ustadıyla birlikdə Şiraza gedir. Orada iki il iqamət etdikdən sonra Kaşana geri dönüb, orada da təhsil, təlif və İslami təbliğat işləriylə məşğul olur.

Feyz Kaşani çox sayda şagird yetişdirib. Şagirdləri ustadlarının mənəviyyatından və elmindən istifadə edərək ondan hədis nəql etmə icazəsi alıblar.

**Şagirdlərindən bəziləri:**

1. Muhəmməd (Ələmul-huda; hicri 1029-1115) Eyni zamanda böyük bir fəqih olan Feyz Kaşaninın oğlu atasının bir çox təlifində ona köməkçi olmuşdur.

2. Əhməd (Muiddin; hicri 1056-1107) Feyz Kaşaninin alim və fəqih olan bir başqa oğludur.

3. Muhəmməd Mömin (r.ə), Feyz Kaşaninin qardaşı Əbdülğəfurun oğlu və eyni zamanda Mazandaran Elmlər Hövzəsinin böyük və tanınmış ustadlarından idi.

4. İkinci Şah Murtəza (r.ə), Feyz Kaşaninin qardaşının oğlu.

5. Ziyauddin Muhəmməd (r.ə), Feyz Kaşaninin dayısı Hakim Nuruddinin oğludur. Bu şəxs alim, fəqih və şair idi.

6.7. Molla Şah Fəzlullah və Molla Aləmi (Feyz Kaşaninin bacısı oğullarıdırlar. Onlar əqli və nəqli elmlərdə zamanlarının böyük ustadları arasında iştirak etməkdə idilər. Fiqh, təfsir və kəlam mövzularında təxminən qırx əsər yazmışlar.)

8. Molla Muhəmməd Məclisi (hicri 1037-1111)

9. Seyyid Nemətullah Cəzairi (r.ə), (hicri 1112)

10. Qazi Səidi Qummi (r.ə), (1103 h.)

11. Molla Muhəmməd Sadiq Xəzai (r.ə)

12. Şəmsuddin Muhəmməd Qummi (r.ə)

13. Şeyx Muhəmməd Muhsin Şirazi (r.ə)

Feyz Kaşani ömrünü elm, təhsil və təliflə keçirib. Böyük şəxsiyyətlərdən faydalanaraq 18 yaşlarında kitab yazmağa başlayıb. 65 illik bərəkətli həyatında müxtəlif mövzularda təxminən 150 cild kitab yazaraq İslam aləminə miras qoyub.

**Əsərlərindən bəziləri:**

a) Təfsir sahəsində:

1. Təfsiri-Safı (bu əsəri hicri 1075-ci ildə Şiənin və Əhli-sünnət məktəblərinin təfsirlərini mütaliə etdikdən sonra yazmışdır);

2. Təfsiri Təəssüfi;

3. Təfsiri Muşfi.

b) Hədis və Rəvayət sahəsində:

1. Vafi;

2. Şafi;

3. Nəvadir;

4. Məhcətul Bəyza;

5. Məfatihuş-Şəraye.

c) Kəlam sahəsində:

1. İlmul Yəqin;

2. Həqqul Yəqin;

3. Əynul Yəqin;

4. Həqqul Mubin.

d) Əxlaq sahəsində:

1. Ziyaul qəlb;

2. Abi Zülal;

3. Şövqul huda;

4. Şövqul eşq.

Feyz Kaşanini öz dövrünün və sonrakı dövrlərin böyük alimləri gözəl sözlərlə tərifləmişlər.

Muhəmməd Ərdəbili (r.ə), (ö. h. XI əsr) belə deyir: "O, əllamə, muhəqqiq, ərdəm sahibi, ədib və böyük bir alim idi."

Şeyx Hurr Amuli (ö. h. 1104) deyir: "Feyz Kaşani sifətiylə xatırlanan Muhəmməd ərdəmli, alim, qabiliyyətli, həkim, mütəkəllim, muhəddis, fəqih, muhəqqiq, şair və ədib bir alim idi. O, həm də əsrimizin böyük yazıçılarından idi."

Muhəddis Nuri (ö. h. ş. 1320) deyir: "Şah Murtəzanın oğlu olan Molla Muhsin Feyz Kaşani ərdəmli, alim, muhəddis arif və həkim biriydi."

Əllamə Əmini (ö. h. ş. 1349) belə deyir: "Fiqh və hədis elminin bayraqdarlığını edən Feyz Kaşani elm mədəni idi. Onun kimi bir alim bir daha yer üzünə gəlməz."

Murtəza Mutəhhəri (ö. h. ş. 1358) deyir: "Feyz Kaşani böyük muhəddis və fəqih olmaqla yanaşı usta bir həkim və filosof idi."

Feyz Kaşani 84 yaşında doğum yeri olan Kaşanda vəfat edərək əbədiyyət yurduna köç etdi. Dostları və şiələrin gözyaşları arasında həyatdaykən satın alıb qəbristanlıq üçün vəqf etdiyi qəbristanlıqda torpağa verildi. Vəsiyyətinə əsasən məzarının üzərinə heç bir kölgəlik və məqbərə tikilmədi.



# ÜZDƏNİRAQ ZİYALILIQ

Bəziləri deyir ki, namaz qılmaq nə deməkdir, ibadət nədir? Bunlar qoca qarıların işidir, insan ictimai olmalıdır! Bu sözlər bir növ ziyalılıq, amma üzdəniraq ziyalılıqdır!

Bildiyiniz kimi, ikinci xəlifə azandan «Həyyə əla xəyril əməl» (əməllərin xeyirlisinə tələsin) sözlərinin çıxarılmasına əmr vermişdi. O, bu ifadəni azandan nə üçün çıxarıb? Onun özündən kəşf etdiyi «ziyalılıq» bu işi görməsinə səbəb olub. Cənab Ömər bu işi ilə böyük bir səhvə yol verib. Onun xilafət dövrü islami fəthlərin qızğın çağına təsadüf edirdi. İslam döyüşçüləri dəstə-dəstə gərgin döyüşlərə gedir və az sayla özlərinin güclü düşmənlərini diz çökdürürdülər. Sayları 50-60 min nəfəri keçməyən müsəlmanlar hər biri neçə yüz minlik qoşuna malik olan böyük İran və Rum imperatorluğu ilə döyüşüblər və hər iki cəbhədə düşmənə qalib gəliblər.

Cihad bir daha öz dəyərini sübuta yetirir və İslamın mücahid yetişdirməsinin mənası bəlli olurdu. Belə olan şəraitdə o, öz-özlüyündə belə düşünür: Azanda uca səslə «Allahu əkbər», «Həyyə ələs-səlat» və «Həyyə ələl fəlah» deyilməsinin heç bir eybi yoxdur, amma «Həyyə əla xəyril əməl» deyilməsi mücahidlərin ruhiyyəsinə xələl gətirər. Çünki mücahidlər öz-özlərində fikirləşərlər ki, əgər namaz əməllərin ən yaxşısıdırsa, biz döyüş meydanlarında cihad etmək əvəzinə Mədinə məscidində Peyğəmbərin (s) qəbri yaxınlığında qalıb əməllərin ən yaxşısı olan namaz qılmaqla məşğul olarıq. Başqaları gedib döyüşsünlər, yaralanaraq ölsünlər, gözləri kor olsun, əl-ayaqları kəsilsin, qarınları deşilsin, biz burda öz evimizdə ailəmizin yanında qalıb dörd rükət namaz qılarıq və əməl baxımından onlardan da üstün olarıq. Cənab Ömər buna görə də belə dedi: Xeyr, bu pis nəticələr verə bilər. Bu ifadəni azandan çıxarmağımız məsləhətdir. Onun yerinə belə deyin: «Əssəlatu xəyrun minən-novmi», yəni namaz yaxşı şeydir, amma yuxudan yaxşıdır. Yatmaq əvəzinə gəlib məsciddə namaz qılsanız, yaxşı olar. Amma o, həmin neçə min əsgərin neçə yüz minlik qoşunun qarşısında iki cəbhədə hansı qüdrətlə döyüşməsi və qalib gəlməsini fikirləşmirdi. Həmin fəth və zəfərlər nəyin sayəsində olurdu? Onlar silah gücünə qələbə qazanırdılar? Ərəblərin silahları iranlı və rumluların silahlarından çox idi? Xeyr, heç vaxt! İranlı və rumlular dövrün mütərəqqi və sivilizasiyalı ölkələrindən idilər və ən üstün silahlar onların ixtiyarında idi. Halbuki ərəblərin qılıncları İran və Rumda olan qılıncların müqabilində sınıq dəmirə bənzəyirdi. Bəlkə ərəblərin soy və nəsəbləri İran və rumluların nəsəblərindən güclü və qüvvətli olub? İslamdan qabaq Şahpurun ərəblərin başına nələr gətirdiyini eşitməmisiniz? Minlərlə ərəbi əsir götürən Şahpur deyildimi? Şahpur onların çiyinlərini qaraldaraq deşib zəncirləmədimi? Əgər ərəblər güclü idilərsə, bəs Şahpurun vaxtında həmin güc harada idi? Məgər yüz ildən sonra həmin İran ərəbləri məğlub etmədimi? Bəs ərəblər İran və Rumla hansı qüvvə ilə döyüşür və onları məğlub edərək diz çökdürürdü? Onun gücü iman gücü idi. «Həyyə əla xəyril əməl»dən aldığı, namazdan və Allahla raz-niyazdan əldə etdiyi güc idi. Quranın dili ilə desək, o, gecə Allah dərgahında dayanıb münacat edəndə öz Allahından güc alırdı. Onu bu güc və qüvvə ruhlandırırdı, yəni İran və Rumu məğlub edən ərəbin silahı deyil, ruhiyyəsi idi. O, bu ruhiyyəni haradan alırdı? İmanından! Namaz imanı təmizləmək və yeniləşdirməkdir. O, bu ruhiyyəni «Allahu Əkbər»indən alırdı. Namazda bir neçə dəfə «Allahu Əkbər» deyəndə hamının cavabını verirdi. Bunların hamısı yoxa çıxırdı. Qarşısında yüz minlərlə düşmən əsgərini görəndə «La hövlə və la qüvvətə illa billahil əliyyil əzim» (Uca və Əzəmətli Allahdan başqa heç bir güc və qüvvə yoxdur) deyir. «Allah hər şeydən böyükdür və bütün qüdrətlər Onun əlindədir» deyir. İnsan Allaha arxalanmalı, Ondan güc və qüvvə istəməlidir. Ona bu namaz güc verir. Əgər bu namaz olmasaydı, həmin mücahid əsgər mücahid olmazdı.

Əgər kimsə bunları səhv başa düşərək Mədinədə qalıb cihad etmək əvəzinə namaz qılmaq istəyirsə və məsələni düzgün dərk edə bilmirsə sən onu başa salıb səhvdən uzaqlaşdırmalısan. Məgər İslam bütün hökm və göstərişlərin bir-biri ilə bağlı olduğunu söyləməyibmi? Cihad etməsi vacib olan şəxs cihada getməlidir və onun namaz qılmaq üçün Mədinə məscidində qalması haramdır. Namazın qəbul olmasının şərti cihad, cihadın qəbul şərti isə namazdır. Mücahidə lazım olan şərtlərin toplandığı şəxsin cihada getməsi vacibdir, ona cihadsız namazın batil olmasını başa salmaq lazımdır. Bu nəinki əməllərin xeyirlisi deyil, hətta pisidir və ümumiyyətlə namaz deyil. Ona İslamın istədiyi namazı başa sal! Cihaddan qaçıb məscidi seçən şəxsin namazı İslam namazı deyil. İslam namazı əməllərin ən xeyirlisidir. Deməli, «Həyyə əla xəyril əməl»i na-

mazdan götürmək və onun müsəlmanların cihad əvəzinə namaza üz tutmalarına səbəb olmasını fikirləşmək əvəzinə, məsələləri düzgün dərk etməyənləri başa salmaq lazımdır! Onu başa salaraq səhv fikri zehnindən çıxarmaq lazımdır. Belə işlər görmək əvəzinə nə üçün azanda dəyişikliklər aparırsan?!

Buna görə də İslam məntiqində, bu günkü dillə desək, İslamın dəyərlər quruluşunda, ibadət dəyərlərin ən başlıcasıdır, amma bütün şərtləri riayət edilən İslami ibadət! Quran nişanə və təsirləri aşkar olan namazın düzgün namaz olduğunu bildirib. Namaz öz təsirini necə göstərməlidir? Quran bu barədə belə buyurur: «...Həqiqətən, namaz [insanı] çirkin və pis işlərdən çəkindirir...» (Ənkəbut-45).

Bəli, düzgün namazın xüsusiyyəti budur ki, o, insanı pis və çirkin işlərdən çəkindirir. Əgər namaz qılır və eyni zamanda günah edirsənsə, namazının namaz olmadığını bil, namazını düzəlt! Namazın düzgün namaz olsa, o, səni bütün dəyərlərə çatdıracaqdır.

Bütün dərs və ibrətləri Əlidən (ə) almalıyıq. O, bütün islami dəyərləri bir yerdə cəm etmiş toplumdur. Nəhcül-bəlağə Əlinin (ə) sözləri toplanmış kitabın adıdır. Bu elə bir kitabdır ki, adam onun harasına baxırsa, yeni bir məntiqlə rastlaşır, yəni bundan əvvəl danışan şəxsin deyil, başqa bir insanın danışdığını güman edirsən. O, Nəhcül-bəlağənin hər yerində əvvəlkindən fərqli, yeni bir şəxsiyyət, yəni bütün insani dəyərlərə malik olan bir şəxsiyyətdir. O, bir yerdə ancaq qəhrəmanlıq məntiqinə əsaslanır. Sanki uşaqlıq dövründən sonra hərbiçilik məktəbindən təhsil alıb və hərbi rütbələri keçərək bir komandan olub və hərbi komandanlıq məsələlərindən başqa heç nə bilmir. Yalnız hərbi qəhrəmanlıqla dolu bir ruha malikdir. Başqa bir yerdə isə həmin Əlini aşiqcəsinə olan münacatdan başqa heç nəyə diqqət etməyən arif kimi görürük.

"Kamil insan"
Ustad Mürtəza Mütəhhəri

# İBRƏTNAMƏ

## EY İNSAN

*Vardırsa əlində nə qədər fürsət, ey insan,*
*Al kəlmələrimdən özünə ibrət, ey insan.*

*Beş günlük həyatdır, soruş öyrən bu cahana,*
*İnsan kimi gəlməkdə nadir hikmət, ey insan.*

*Bir gün sənin üçün də çəkərlər bu salatdan,*
*Bir gün də çatar getməyinə növbət, ey insan.*

*Sal axirəti yadına gör yaxşı əməllər,*
*Qalmaz sənə nə var, nə şan-şöhrət, ey insan.*

*Bir kəs bu cahan içrə deyil daimi, puçdur,*
*Dünya və onun verdiyi hər sərvət, ey insan.*

*Allaha tapın, həqqi tanı, yaxşılıq eylə,*
*Üqbadə elə məskənini cənnət, ey insan.*

*Ol əhli-səxa, əhli-vəfa, əhli-şücaət,*
*Məhşərdə Əlidən görəsən, hörmət, ey insan.*

*Hər kəs ki, Əli adına vurğundu həyatda,*
*Kövsər bulağından içəcək şərbət, ey insan.*

*Sən mahi-Məhərrəmdə əza saxla Hüseynə,*
*Layiqdi bu yolda edəsən xidmət, ey insan.*

*On dörd nəfərə eyləyəsən kərçi təvəssül,*
*Dərgahi-Xudadan gələcək rəhmət, ey insan.*

*Soltan sənə Allah sözünü eylədi aşkar,*
*Bir fikr elə, hər kəlməyə et diqqət, ey insan.*

***Hacı Soltan***

# Mübarək RƏCƏB ayı

***Mübarək Rəcəb ayı - Allah qonaqlığı üçün səfərə hazırlıq aylarından birincisidir. Bu ay - tövbə diləmə, bağışlanma istəmə, ləyaqət və şərafət əldə etmə, yalandan, qeybətdən, böhtandan, qorxaqlıqdan, yaltaqlıqdan, hər bir eybəcərlikdən müalicə olunma ayıdır.***

***Rəcəb ayı haqqında İmam Cəfər Sadiqdən (ə) nəql edirlər: «Qiyamət günü carçı ərşin bətnindən bir fəryad çəkər: «Eynər-racəbiyyun? /haradadır rəcəb ayının əhli?/». Və insanlardan bir qrup ayağa qalxar və onların simasının nuru topluma işıqlıq və nuraniyyət verər. Bu insanların başlarının üzərinə dürr və yaqut-la zinətlənmiş sultanlıq tacları qoyular. Onların hər birinin sağ tərəfində min mələk və sol tərəfində min mələk olar. Və (mələklər) söyləyərlər: "Ey Allahın bəndəsi! Xoş gəlmisən! Allahın sənə əta et-diyi sənin üzərinə mübarək olsun!". Bu zaman Allah (cəllə-cəlaluh) tərəfindən nida gələr: «Ey mənim qadın və kişi bəndələrim! İzzət və cəlalıma and olsun ki, sizin mübarək məqamınızı əziz tutacağam və sizə çoxlu sayda ətalar bəxş edəcəyəm və sizə behiştdə saraylar verəcəyəm ki, orada çaylar axır. Və orada əbədi qalacaqsınız. Və nə gözəl mükafatdır o kəslər üçün ki, çalışmışdırlar. Siz könüllü surətdə - Mənim xatirimə, bir ayda ki, onun hörmətini uca tutdum və haqqının riayət olunmasını vacib bildim - oruc tutdunuz. Ey mənim mələklərim! Bu kişi və qadın bəndələrimi behiştə aparınız!». Bu mükafat o kəs üçündür ki, bu ayın bir miqdarında oruc tuta. Və hətta 1 gün olsa da belə: əvvəlində, ortasında və ya axırında».***

## Rəcəb ayının əməllərindən

Rəcəb ayının ilk gecəsi (yəni, cəmaduyəs-sani ayının axırıncı günündən rəcəb ayının ilk gününə keçən gecə) bu duanı oxumaq tövsiyə edilmişdir: «Əllahummə bərik lənə fi racəbin və şəbənə və bəlliğnə şəhra-Raməzan» (Duada Allah Təaladan 3 mübarək ayın - Rəcəb, Şəban və Ramazan aylarının fəzilətlərinin əta edilməsi istənilir)

Rəcab ayının ilk cüməsinin gecəsi (yəni Rəcəbin ilk cümə axşamından ilk cüməsinə keçən gecə) "leylətul-rəğayib" adlanır. Bu gecəni ibadət və dualarla keçirmək tövsiyə olunub.

Rəcəb ayının əvvəl, orta və axır günlərində qüsl almaq müstəhəbdir və bu əməl günahların bağışlanmasına səbəb olar.

Rəcəb ayının bütün günləri oruc tutmaq müstəhəbdir və günahların bağışlanmasına səbəb olar. Hər kəs də qismət olan miqdarda bu günlərdən bəhrələnə bilər.

Rəcəb ayında ən azı 3 gün oruc tutmağın çox böyük fəziləti vardır. O kəslər ki, Rəcəb ayında oruc tutmaq imkanları yoxdur, onun yerinə sədəqə versinlər (imkanları çərçivəsində). Oruc tutmağa və sədəqə verməyə imkanı olmayan insanlar, əvəzində zikrlər deyə bilərlər.

Rəcəb ayında Məsumların (ə) mübarək hərəmlərini ziyarət etməyin böyük fəziləti vardır.

Rəcəb ayında tövbə və istiğfar etməyin və təhlil (lə iləhə illəllah) deməyin böyük fəziləti vardır.

Həzrət Rəsulullahdan (s) nəql edilir: «Hər kim rəcəb ayında 100 dəfə söyləyə: "əstəğfirullahəl - ləzi lə iləhə illə huvə vəhdəhu lə şərikə ləhu və ətubu iləyh" və oxuduğu duanı sədəqə ilə xətm edə /sonlandırsa/, Allah Təala da onun durumunu rəhmət və bağışlama ilə xətm edər. Və hər kim (bu zikri) 400 dəfə desə, onun üçün 100 şəhidin savabı yazılar».

Rəcəbin 15-nin kecəsində (14-dən 15-nə keçən gecə) 12 rükət na-maz ricaən (qəbul olma ümidi) niyyəti ilə qılmaq bəyənilmişdir;

Rəcəb ayının 15-də qüsl almaq, oruc tutmaq, İmam Hüseyni (ə) ziyarət etmək - bəyənilmiş əməllərdəndir.

Rəcəb ayında çox deyilməsi tövsiyə edilən zikrlərdən: «Əstəğfirullahə və əs-əluhut-təvbə»

## Tarix

Rəcəb ayının 1-i hicri 57-ci il - 5-ci imam - İmam Muhəmməd Baqirin (ə) mübarək mövludu günüdür.

Rəcəb ayının 3-ü hicri 254-cü il - 10-cu imam - İmam Hadi (ə) (Əliyyən-Nəqi (ə)) şəhadətə yetişmişdir.

Rəcəb ayının 8-i hicri 20-ci il - İslam dininin Misirə gəldiyi gündür.

Rəcəb ayının 10-u hicri 195-ci il - İmam Muhəmməd Təqinin (ə) (müsəlmanlar bu mübarək şəxsi, İmam Cavad (ə) adı ilə də tanıyırlar) mübarək mövludu günüdür.

Rəcəb ayının 12-i hicri 36-cı il - Həzrət Əli (ə) Kufə şəhərinə daxil olmuş və buranı xilafətin paytaxtı kimi müəyyənləşdirmişdir.

Rəcəb ayının 13-ü hicrətdən 23 il öncə Məkkə şəhərində, Kəbə evində Əmirəlmöminin Həzrət Əli (ə) dünyaya gəlmişdir.

Rəcəb ayının 15-i, hicri 62-ci ildə Kərbəla həqiqətlərini dünyaya çatdıran, zalım yezid istibdadını öz qəhrəman çıxışları ilə lərzəyə gətirən Həzrət Zeynəbın (s.ə.) vəfatı günüdür.

Rəcəb ayının 19-u, 9-cu hicri ilində, Təbuk qəzvəsi baş vermişdir. Gənc İslam qoşunu, Rum imperiyasının təcavüzünün qarşısını almaq üçün, Rəsuli-Əkrəmin (s) başçılığı altında, Mədinə şəhərindən Ərəbistan yarımadasının şimalınadək yürüş etmiş, İslamın qüdrət və əzəmətini bütün ərəb tayfalarına nümayiş etmişdi.

Rəcəb ayının 20-si, 13-cü hicri ilində müsəlman mücahidlərilə Rum imperiyası arasında Yərmuk döyüşü baş vermişdir.

Rəcəb ayının 24-ü, 7-ci hicri ilində, mühüm strateji əhəmiyyətə malik olan Xeybər qalası müsəlmanlar tərəfindən fəth edilmişdir.

Rəcəb ayının 25-i, hicri 183-cü ildə, müsəlmanların 7-ci İmamı – Həzrət Museyi-Kazım (ə), dövrün xəlifəsi qəsbkar Harun-ər-Rəşid tərfindən zəhərlənərək, şəhadətə yetişmişdir. Mübarək hərəmi Kazimeyn şəhərindədir. İmamı (ə) ziyarət etməyə əli çatmayanlar, onun qızlarının Vətənimizdə - Nardaranda və Bibi-Heybətdə olan məqbərələrini ziyarət edə bilərlər.

Rəcəb ayının 27-də, hicrətdən 13 il öncə - Həzrət Muhəmməd ibn Abdullaha(s) peyğəmbərliyin verilməsi günü - Məbəs günüdür. Bu gündə oruc tutmaq çox müstəhəbdir.

Rəcəbin 28-i, hicrətin 60-cı ilində İmam Hüseyn (ə) Mədinədən Məkkəyə doğru hərəkət etmişdir. Bu - Aşura salnaməsi ilə sonlanan, xilafəti qəsb etmiş zalım Yezid istibdadına qarşı mübarizə hərəkatının başlanğıcı idi. Azsaylı tərəfdarları ilə İslamı yaşadan, zülmə, rəzilliyə «yox!» deyən İmam Hüseyn (ə), bu yenilməz mübarizəsilə misilsiz qəhrəmanlıq məktəbinin əsasını qoymuşdur.




İnsan nə qədər seçməyib Allah yolunu,
ətrafı bəlayla doludur.
Bu bəlalardan uzaq edən hər bəndəni,
əlbətdə ki, Allah yoludur.



İmam Səccad (ə) (duada):
«Ey Ağam! Öz günahlarıma baxıram, qorxuram.
Sənin bağışlamağına baxıram, (ümidə) tamahlanıram.»



Bir insan Allahdan başqa kimsəyə ehtiyacı olmadığına inanarsa Allah da onu başqasına möhtac etməz..







Yaxşılığı gizlətmək, Pisliyi gizlətməkdən daha üstündür.



Kimi Sevirsən ?
"99" Adı Var Hansın Deyim ?!



ALLAH insana "onun istədiyini" deyil, "ona lazım olanı verir". Buna görə də "niyə görə" deyə soruşmayın, "nəyə görə" barəsində düşünün...



Şeytan qapımızı belə döyür : "Din-dən-dön"



Həzrəti Əli (ə): Etməli olduğun xeyirli və faydalı işləri sabaha saxlama. Baxarsan sabah olar da, sən olmazsan.



Olmadı deyə sızlandığın duaya,
gün gələr olmadı deyə şükür edərsən!!!

İMAN

www.iman.ge www.imanmedia.ge

# AZAN VAXTLARI

| Tarix | Sübh azanı | Günəş çıxır | Günorta azanı | Günəş batır | Məğrib azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|
| 01 | 3:40 | 15:29 | 12:58 | 20:28 | 20:49 | 00:14 |
| 02 | 3:40 | 5:28 | 12:59 | 20:29 | 20:49 | 00:14 |
| 03 | 3:39 | 5:28 | 12:59 | 20:30 | 20:51 | 00:14 |
| 04 | 3:39 | 5:28 | 12:59 | 20:31 | 20:51 | 00:14 |
| 05 | 3:38 | 5:27 | 12:59 | 20:31 | 20:52 | 00:14 |
| 06 | 3:37 | 5:27 | 12:59 | 20:32 | 20:52 | 00:14 |
| 07 | 3:37 | 5:27 | 12:59 | 20:33 | 20:53 | 00:15 |
| 08 | 3:36 | 5:26 | 13:00 | 20:33 | 20:54 | 00:15 |
| 09 | 3:36 | 5:26 | 13:00 | 20:34 | 20:54 | 00:15 |
| 10 | 3:35 | 5:26 | 13:00 | 20:34 | 20:55 | 00:15 |
| 11 | 3:35 | 5:26 | 13:00 | 20:35 | 20:55 | 00:15 |
| 12 | 3:34 | 5:26 | 13:00 | 20:35 | 20:56 | 00:15 |
| 13 | 3:34 | 5:26 | 13:01 | 20:36 | 20:56 | 00:15 |
| 14 | 3:34 | 5:26 | 13:01 | 20:36 | 20:57 | 00:15 |
| 15 | 3:34 | 5:25 | 13:01 | 20:37 | 20:57 | 00:15 |
| 16 | 3:33 | 5:26 | 13:01 | 20:37 | 20:58 | 00:16 |
| 17 | 3:33 | 5:26 | 13:01 | 20:38 | 20:58 | 00:16 |
| 18 | 3:33 | 5:26 | 13:02 | 20:38 | 20:59 | 00:16 |
| 19 | 3:33 | 5:26 | 13:02 | 20:38 | 20:59 | 00:16 |
| 20 | 3:34 | 5:26 | 13:02 | 20:38 | 20:59 | 00:16 |
| 21 | 3:34 | 5:26 | 13:02 | 20:39 | 20:59 | 00:17 |
| 22 | 3:34 | 5:26 | 13:03 | 20:39 | 21:00 | 00: 17 |
| 23 | 3:34 | 5:27 | 13:03 | 20:39 | 21:00 | 00:17 |
| 24 | 3:34 | 5:27 | 13:03 | 20:39 | 21:00 | 00:17 |
| 25 | 3:35 | 5:27 | 13:03 | 20:39 | 21:00 | 00:18 |
| 26 | 3:35 | 5:27 | 13:03 | 20:39 | 21:00 | 00:18 |
| 27 | 3:36 | 5:28 | 13:04 | 20:39 | 21:00 | 00:18 |
| 28 | 3:36 | 5:28 | 13:04 | 20:39 | 21:00 | 00:18 |
| 29 | 3:37 | 5:29 | 13:04 | 20:39 | 21:00 | 00:19 |
| 30 | 3:37 | 5:29 | 13:04 | 20:39 | 21:00 | 00:19 |


*Təsisçi: " İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*



*Ünvan: Tbilisi, Mçxeta küç.№4*

*Tel: (822) 23 39 87*


## *Ayın təqvimi*

*İYUN:*

*01 İmam Cavadın (ə) təvəllüdü.*
*04 İmam Əlinin (ə) təvəllüdü.*
*06 Həzrət Zeynəbin (s.ə) Vəfatı.*
*16 İmam Museyi Kazimin (ə) şəhadəti.*
*18 Məbəs bayramı.*
*23 İmam Hüseynin (ə) təvəllüdü.*
*24 Həzrət Abbasın (ə) təvəllüdü.*
*25 İmam Səccadın (ə) təvəllüdü.*

*Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.*